www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 yanvar 2016-cı il Cümə № 10 (6331) Qiymәti 60 qəpik

**Xəbər**

**Məcburi köçkünlərə bəd xəbər: bir sıra güzəştlər ləğv ediləcək**

yazısı səh.13-də

**Gündəm**

**Azərbaycanı qaz bazarında kim sıxışdırır - Rusiya, Qərb, yoxsa hər ikisi?**



Gürcüstanın qərarı enerji bazarında SOCAR-ın hökmranlığına son qoymağa yönəlib

yazısı səh.9-da

**Bayraq Meydanının həbsdəki sabiq rəisi haqda yeni xəbər**

yazısı səh.12-də

**Obamanın qəfil zənginin pərdəarxası - Putin Əsədi neçəyə satacaq?**

yazısı səh.8-də

**Nardaranda dindarlar nəzarətə götürülür**

yazısı səh.7-də

**ABŞ-ın Azərbaycana işi düşüb**

yazısı səh.11-də

**Dollar kreditləri - əhali gözləyir, banklar isə öz xeyrini güdür**

yazısı səh.12-də

**Azərbaycan "ən pis ssenariyə" hazırlaşmalıdır**

yazısı səh.13-də

**Jurnalisti öldürənlər məhkəmədə ziddiyyətli ifadələr verdilər**

yazısı səh.3-də

**"Undum qoğal olmuşam" və ya biz niyə çox çörək yeyirik...**

yazısı səh.15-də

**Hökumət büdcəni dəyişir: neft 30 dollardan hesablanacaq**

yazısı səh.9-da

**PKK-nın fəallaşmasında Moskvanın "barmağı" var**

yazısı səh.11-də

**"Üns" teatrının həbsdəki redaktoru bəraət istəyir**

yazısı səh.10-da

## Sabiq nazir MR rəhbərinə qarşı necə oyun qurubmuş

# ELDAR MAHMUDOVU BİTİRƏN DAHA BİR SƏBƏB-VASİF TALIBOVA QARŞI OYUN

Şərurda keçmiş nazirin atasının heykəlinin uçurulması ilə 2013-cü il prezident seçkilərə ərəfəsi MTN-in keçirdiyi əməliyyat arasında nə əlaqə var?; Naxçıvan Ali Məclis sədrinin yaxın qohumundan "tapılan" silahlar əslində MTN-in keçmiş rəhbərliyinin ixtiyarında olub; Eldar Mahmudov nəyə nail olmaq istəyirmiş və ...




yazısı səh.10-da

## Rayonlardakı narazılığı müxalifətə bağlamaq cəhdi etiraz doğurdu

Təşkilat sədrləri etiraz aksiyalarından danışdılar; İqbal Ağazadə: "Burada müxalifət izi axtarmağın, vətəndaşın etirazına siyasi çalar verməyin heç bir mənası yoxdur"

yazısı səh.6-da



**Nəsiman Yaqublu İlham Rəhimovun yubileyindən yazdı**

yazısı səh.5-də



Mərdan Camalov

**Şirvanın icra başçısı rayonu necə vəhhabi mərkəzinə çevirdi...**

yazısı səh.3-də



Tahir Süleymanov

**Siyəzənin deputatı tapıldı və danışdı**

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 10 (6331) 15 yanvar 2016

# Neft Fondu bu gün bazara 200 milyon dollar çıxaracaq

**Neft Fondu bu gün bazara 200 milyon dollar çıxaracaq Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) cari ildə valyuta satışını davam etdirir.**

Fonddan virtualaz.org saytına verilən məlumata görə, sabah Mərkəzi Bankın müntəzəm hərracları vasitəsilə hərrac təşkil olunacaq.

Hərracda ölkədəki bütün banklar iştirak edə biləcək və satışa 200 milyon ABŞ dolları məbləğində vəsait çıxarılacaq. İl ərzində ARDNF tərəfindən hərraclar vasitəsilə valyuta satışı davam etdiriləcək.




## Professor İlham Rəhimovun Rusiyada yeni kitabı çapdan çıxıb



**Hüquq elmləri doktoru, professor İlham Rəhimovun Sankt-Peterburqun "Öridiçeskiy üentr" nəşriyyatı tərəfindən rus dilində yeni kitabı çapdan çıxıb. "O nravstvennosti nakazaniə" ("Cəzanın əxlaqı haqqında") adlanan bu monoqrafiya cəzanın fəlsəfi mahiyyəti haqqında müəllifin əvvəllər "Cinayət və cəza" (M., 2012), "Cinayət və cəzanın fəlsəfəsi" (SPb, 2013) kitablarında ifadə edilmiş düşüncələrinin davamıdır.**

Əsərdə isbat edilir ki, hüquq elmi yalnız cəzanın formal tərifini verə bilər, bundan artığına qadir deyil. Bu fenomenin mahiyyəti haqqında mücərrəd mühakimə onun əxlaqına müdaxiləyə cəhd etmək, fəlsəfi fikrin hazırladığı kateqoriyalara daxil etmək imkanı verir. Xüsusən əgər söhbət ölüm cəzasından gedirsə, cəza əxlaqidirmi? Cəza qisas, qorxutma, psixoloji təsirdirmi? Cəzalandırma əxlaqının əsası nədir? Cəmiyyət cəza yolu ilə qarşısına qoyduğu məqsədlərə çatırmı? Müasir şəraitdə cəzadan imtina etmək mümkündürmü? Bu maraqlı əsərdə professor İ.M.Rəhimovun cavab verməyə çalışdığı sualların tam olmayan siyahısı belədir.

Kitab tələbələr, hüquq ali məktəblərinin aspirant və müəllimləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, cinayət hüququ sahəsində ixtisaslaşan nəzəriyyəçi və praktiklər, eləcə də filosoflar, sosioloqlar, psixoloqlar, cinayət və cəza problemləri ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

## "Demişəm, axmaq köpəkoğlu...Burda nə var ki?"




**Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Mahmud Quliyev Biləsuvar rayonunda məskunlaşan cəbrayıllı məcburi köçkünləri təhqir etməsi ilə bağlı iddialara və yayılan videoya münasibət bildirib.**

İcra başçısı publika.az-a açıqlamasında deyib ki, məcburi köçkünlərlə sözügedən görüş olub: "Ancaq mən heç kəsi söymədim. Söyüş odur ki, kiminsə anasını, dədəsini söyərlər. O videoda söyüş var? Mən orada "rədd ol" ifadəsi işlətmişəm. Rədd ol söyüşdür? Onların hamısı öyrədilmiş adamlardır. Mən onlara fikir vermirəm. Mən öz yerimi, danışığımı və kimlə necə danışmağı da yaxşı bilirəm. Bütün bunları Günel Mövlud təşkil etdirib. Çünki onun atası işdən çıxıb, 2 qardaşı da narkotik maddə istifadə etdiyinə görə həbs olunub. Mən heç onları tanımıram. Ancaq o vaxt Günel Mövludun atası yanıma gəlmişdi, pul istədi, mən də ona pul verdim. Videonu da Günel Mövlud yaydırıb. Heç nədən şər-böhtan yaradırlar".

**İcra başçısı qeyd edib ki, Cəbrayıl camaatı dövlətçiliyi və ölkə prezidentinin yürütdüyü siyasəti dəstəkləyən və sevən insanlardır:** "Cəbrayıl camaatının heç bir narazılığı yoxdur. Başçı kimi də mütəmadi olaraq əhali ilə görüşürəm, onların problemləri ilə yaxından maraqlanıram".

**İcra başçısı lent.az-a açıqlamasında da həmin videoda görüntülənən şəxsin özü olduğunu deyib:** "Mən ora getmişdim, amma bilmirəm ki, orda kim qışqırır, kim-kimi söyür. Orda elə bir söyüş də olmayıb. Bir dənə "köpəkoğlu" sözü deyilib, vəssalam. Öz qohumlarıma demişəm ki, "axmaq köpəkoğlu, burda nə axtarırsan?" Orda heç camaat da yığışmamışdı. Öz qohumlarımdı, ərk edib demişəm. İçib piyan olub, kafedən çıxıb yığışmışdılar. Mən dünən səhərdən bu işlə məşğulam, Cəbrayıl sakinlərindən də soruşmuşam, hamısı deyir ki, onlar bizim öz uşaqlarımızdı. Heç bir təhqir olmayıb".

Xatırladaq ki, sosial şəbəkələrdə Cəbrayıl rayon icra başçısı Mahmud Quliyevlə Biləsuvar rayonunda məskunlaşan cəbrayıllı məcburi köçkünlərdən biri arasında dava düşməsini əks etdirən video yayılıb.


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil, **Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:


## Qazaxıstan parlamenti özünü buraxdı

**Qazaxıstan parlamenti məclisinin deputatları aşağı palatanın təcili buraxılması üçün prezident Nursultan Nazarbayevə müraciət edib.**

Bu barədə "İnterfaks" məlumat yayıb.

Yanvarın 13-də məclisin aşağı palatasının iclasında iştirak edən 103 deputatın hamısı bu qərarın lehinə səs verib.

Qanuna görə, prezident parlamentin hər iki palatasının sədrləri və baş nazir ilə məsləhətləşdikdən sonra məclisin buraxılmasına qərar verə bilər.

Prezident növbədənkənar seçkiləri məclisin səlahiyyətlərinin təcili dayandırılması qərarı ilə eyni vaxtda verir. Seçkilər növbəti iki ay ərzində keçirilir.

Cari beşinci çağırış, məclisin səlahiyyətləri 2016-cı ilin payızında başa çatır.

Məclis 107 deputatdan ibarətdir. 98 deputat vahid ümummilli dairədən partiya siyahısı üzrə siyasi partiyalardan seçilir. 9 deputat Qazaxıstan Xalq Assambleyası tərəfindən seçilir. Məclisin deputatlarının səlahiyyətlərinin müddəti beş ildir.(oxu.az)

"Azərbaycanda yaranmış bugünkü vəziyyət ağılsız və qeyri-demokratik siyasətin nəticəsidir. Doğrudur, bütün dünyada vəziyyət bir qədər ağırlaşıb. Amma neftdən asılı olan ölkələr arasında ən ağır vəziyyətdə olanı bizim ölkəmizdir".


**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**




## Rüstəm İbrahimbəyovdan iqtidara sərt tənqid

**Moderator.az-a açıqlamasında görkəmli yazıçı Rüstəm İbrahimbəyov bildirib ki, Azərbaycan öz iqtisadiyyatını elə qurmalı idi ki, neftdən asılılıq minimuma ensin:**

"İllər boyu deyirdik ki, gec-tez neftin axınına çıxacağıq. İqtisadiyyatımızı elə qurmalı idik ki, neftin satılıb-satılmamasının bizim həyatımıza təsiri olmasın. Təəssüf ki, bu illər ərzində 500 milyard dollara qədər vəsait tələf edilib. Cürbəcür mənasız şeylərə sərf olunub. Mənasız daş hasarlar tikirdilər. Yollar salırdılar, sonra onu hər il sökürdülər, təzədən düzəldirdilər. Beləliklə də gələcəyimizin pullarını məhv elədilər. Ona görə də bu vəziyyətə düşmüşük".

**Rüstəm İbrahimbəyov deyib ki, vəziyyətdən çıxmaq üçün mütləq reformalar keçirilməlidir:**

"Ənənəvi idarəçilikdən imtina etmək lazımdır. Bu üsul və metodlarla hökuməti idarə etmək olmaz. İslahatlar aparılmasa vəziyyət daha da gərginləşəcək. Bilirsiniz ki, Azərbaycana qarşı iki sanksiya hazırlanır və bu sanksiyalar iqtisadiyyatımızı məhv edəcək. Biz uçuruma gedirik, ona görə də iqtidar bu siyasətdən yaxın vaxtlarda imtina etməlidir".

## İŞİD İndoneziyadakı terrorun məsuliyyətini öz üzərinə götürdü

**İndoneziyanın paytaxtı Cakartada törədilən terrorun məsuliyyətini terrorçu İŞİD qruplaşması üzərinə götürüb.**

"Report" xəbər verir ki, bu haqda "Reuters" məlumat yayıb.

"Hücumun hədəfində xarici ölkə vətəndaşları və hüquq-mühafizə orqanlarının əməkdaşları olub", - terrorçular bildirib.

Qeyd edək ki, yanvarın 14-də səhər saatlarında Cakartanın 6 müxtəlif hissəsində törədilən partlayışlar nəticəsində 7 nəfər həyatını itirib, 7 nəfər yaralanıb.

## 2016-cı ildə Azərbaycanda baş verəcək proseslər

### Avropa Birliyi Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun Azərbaycan üzrə əlaqələndiricisindən proqnozlar

**Avropa Birliyi Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun Azərbaycan üzrə əlaqələndiricisi, Humanitar Tədqiqatlar İctimai Birliyinin sədri Əvəz Həsənov 2016-cı ildə Azərbaycanda baş verəcək proseslər barədə maraqlı proqnozlarını bölüşüb. O bildirib ki, icra başçılarının çoxu dəyişdiriləcək, oliqarxların pulları iqtisadi böhrandan yaxa qurtarmağa xərclənəcək, Nazirlər Kabineti özünün mahiyyətini daha da itirəcək və bütün çevik hakimiyyət Prezident Aparatına keçəcək.**

Əvəz Həsənov sonra qeyd edib ki, bankların yarıdan çoxu çökəcək, iri banklar onları udacaq.

Siyasi partiyalara gəlincə, Ə.Həsənovun sözlərinə görə, siyasi partiyalar xalqın etiraz aksiyalarını siyasi məqsədlər üçün istifadə edə bilməyəcək: "QHT-lərə qarşı qadağalar aradan qaldırılmayacaq. Xalqın narazılığı səngiməyəcək, iş yerlərinin itkisi, maaşların azlığı ölkədə siyasi aktivliyi stimullaşdıracaq. Sosial şəbəkələr və xüsusən youtube siyasi mübarizə meydanına çevriləcək. İnsanların etirazları daha çox diqqət çəkəcək məlumatlar olacaq. Manatın kursu indiki vəziyyətini qoruyub saxlayacaq, ölkədə kənd təsərrüfatı məhsullarının yetişdirilməsi stimullaşdırılacaq".

Azərbaycanın dünya gücləri ilə münasibətlərinə gəlincə, Ə.Həsənovun proqnozuna görə, ABŞ-la münasibətlər gərginləşməyəcək. Avropa Birliyi Azərbaycanla strateji əməkdaşlıq sahəsində müzakirələrə başlamağı qəbul edəcək. Azərbaycan Türkiyə və Rusiya münaqişəsində barışdırıcı ərazi rolunu saxlaya biləcək. Azərbaycan Çin və Səudiyyə Ərəbistanının investisiyasının ölkədə payını artıracaq. Bir sözlə, çoxlu hadisələr olacaq, amma əhalinin yaşayışına müsbət təsirləri az olacaq".

❑ **E.SEYİDAĞA**

## AXCP üzvünə 7 sutkalıq həbs cəzası verilib

**Yanvarın 14-də Nərimanov Rayon Məhkəməsində AXCP Gənclər Komitəsinin üzvü Turan İbrahimin cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**

Hüquqşünas Samirə Ağayevanın APA-ya verdiyi məlumata görə, T. İbrahim 7 sutka müddətinə inzibati qaydada azadlıqdan məhrum edilib.

Qeyd edək ki, T. İbrahim ötən gün polis əməkdaşları tərəfindən saxlanılıb.

O, İnzibati Xətalar Məcəlləsinin 310-cu (polisin əmrinə tabe olmama) maddəsinə əsasən ittiham edilir.

Lakin T. İbrahim ittiham üzrə özünü təqsirli bilmir.

## Pakistan Hərbi Dəniz Qüvvələrinin komandanı İlham Əliyevin qəbulunda

**Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 14-də Pakistanın Hərbi Dəniz Qüvvələrinin komandanı Muhammad Zakaullahı qəbul edib.**

Virtualaz.org AzərTAc-a istinadən bildirir ki, Azərbaycanla Pakistan arasında siyasi münasibətlərin yüksək səviyyəsinin məmnunluq doğurduğunu vurğulayan prezident İlham Əliyev iki ölkənin yaxın tərəfdaş və müttəfiq dövlətlər olduğunu, xalqlarımızın bir-birinə qardaşlıq münasibəti bəslədiyini deyib. Pakistanla Azərbaycan arasında ikitərəfli əlaqələrin tarixi, dini və mədəni köklərə malik olduğunu xüsusi vurğulayan Muhammad Zakaullah iki xalqın münasibətlərinin yüksək səviyyədə olduğunu deyib, iki ölkə arasında əlaqələrin gələcəkdə daha da genişləndirilməsinin vacibliyini qeyd edib.

## Kolbasa sexlərində sağlamlıq üçün təhlükəli ətlər aşkarlandı

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti (DBNX) Suraxanı rayonu, Qaraçuxur qəsəbəsi, Şərq massivində yerləşən "Zirvə" kolbasa məmulatları sexində yoxlama aparıb.**

Yoxlama zamanı mənşəyi məlum olmayan, qida üçün keyfiyyəti və yararlığı şübhə doğuran, haradan alınması və sağlamlığı barədə baytarlıq arayışı olmayan 675 kq toyuq farşı, 200 kq heyvan mənşəli farş, 450 kq toyuq filesi, 120 kq toyuq budu, 780 kq sümüksüz toyuq əti, 450 kq qarışıq toyuq əti, 49 kq toyuq qanadı aşkar olunub.

Bu barədə virtualaz.org saytına Baytarlıq Xidmətindən məlumat veriblər.

Xəbərdə deyilir ki, mənşəyi məlum olmayan, sağlamlığı şübhə doğuran məhsullar Respublika Baytarlıq Laboratoriyasına təqdim olunub.

Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti kolbasa sexlərində, ət qəbulu məntəqələrində reydlər keçiriləcəyi ilə bağlı xəbərdarlıq edib.

YENİ MÜSAVAT
N 10 (6331) 15 yanvar 2016

# Jurnalisti öldürənlər məhkəmədə ziddiyyətli ifadələr verdilər

## Fariz Namazlı: "Onların bu hərəkəti məsuliyyətdən yayınmaq üçündür"

**Yanvarın 14-də Bakı Ağır Cinayətlər Məhkəməsində jurnalist Rasim Əliyevi öldürənlərin cinayət işi üzrə növbəti məhkəmə keçirildi. Proses açıq olsa da, bu dəfə də media nümayəndələri, təqsirləndirilən şəxslərin yaxınlarının əksəriyyəti bayırda qaldılar. Saat 10:30-da hakim Eldar İsmayılovun sədrliyi ilə başlayan prosesdə təqsirləndirilən şəxslərdən Kənan Mədətov və Arif Əliyev ifadə verdilər. Onların ifadələri ilə istintaqdakı ifadələri arasında ciddi fərqlər ortaya çıxdı.**



Sankt-Peterburqda Aviasiya Akademiyasının tələbəsi olan **Kənan Mədətov** ittiham üzrə özünü təqsirli bilmədi: "Elşən İsmayılov məni çay içmək adı ilə çağırıb. Dedi ki, gedək, Bayılda çay içək. Mən də maşınla gəlib onu götürdüm. Həmin vaxt Arif və Camal da yanında idi. Camalı çoxdan görmürdüm deyə, yolda ancaq Camalla söhbət elədim. Mənim başqa heç nədən xəbərim olmayıb".

Kənan Mədətovun istintaqa ifadələrində göstərilib ki, o, Elşən İsmayılovla Rasim Əliyev arasındakı mübahisədən xəbərdardır. Kənan Mədətov da futbolçudur. O bildirdi ki, bu gün (dünən-red.) 21 yaşı tamam olur. Onun sözlərinə görə, hadisədən sonra Bibiheybət məscidinə gedərək orada namaz qılıblar, daha sonra Bakıxanov qəsəbəsinə qayıdıb, Arif və Elşəni düşürüb, özü isə Camalla çay içməyə gedib.

**Digər təqsirləndirilən Arif Əliyev jurnalistin döyülməsində iştirakını etiraf etdi:** "Amansızlıq məsələsi ilə razılaşmıram. Biz balta ilə vurmamışıq, bıçaqla vurmamışıq".

**Arif Əliyev həmçinin Rasimin telefonunu götürdüyünü də təsdiqlədi:** "Yerə düşmüşdü, elə bildim uşaqlardan birinindi. Bibiheybətə çatanda soruşdum, dedilər bizim deyil. İçindəki şəkillərə baxanda bildim ki, rəhmətliyindi. Hadisənin ertəsi gün tulladım".

Arif Əliyevin istintaqa verdiyi ifadələrdən birində isə telefonu şəxsi istifadə üçün götürdüyü yazılıb. O, bu haqda yazılanların doğru olmadığını bildirdi. Qeyd etdi ki, ifadələri müstəntiq yazıb və özü də oxumadan imzalayıb. İstintaqın sonunda iş materialları ilə tanış olanda isə orada səsləndirmədiyi fikirlərə rast gəlib.

**Təqsirləndirilən şəxslərdən Samir Mustafayevin vəkili Bəxtiyar Hacıyev açıqlama verdi:** "Günahsız şəxsin cinayət məsuliyyətinə cəlb olunmasına mərhumun yaxınları da, sizlər də razı olmazsınız. İstintaq vaxtı kifayət qədər haqsızlıqlar olub. Həkimlərin bu işdə günahları danılmazdır. Fariz Namazlı bununla bağlı əsaslı vəsatət vermişdi. Həkimlərin ətraflı dindirilmələrinə nail olmalıyıq".

**Zərərçəkmiş tərəfin vəkili Fariz Namazlı da açıqlama verdi:** "Təqsirləndirilən şəxslərdən ikisi ifadə verdi. Onlar bildirdilər ki, hadisədən xəbərləri olmayıb, Elşən İsmayılov onlara məlumat verməyib. Arif Əliyev istintaqda etiraf edib ki, məqsədləri Rasim Əliyevi cəzalandırmaq olub. Kənan Mədətov istintaqda verdiyi ifadənin əksini məhkəmədə dedi. Guya Bayıla çay içmək üçün gedib. Bildirdi ki, istintaqdakı ifadə onun deyil. Təbii ki, bu, təqsirləndirilən şəxsin müdafiə taktikasıdır. Onların məhkəmədə verdikləri ifadələr məsuliyyətdən yayınmaq üçündür. İfadələr arasında ciddi ziddiyyət var. Bu gün ifadə verən şəxslərin ikisi də ibtidai istintaqda verdikləri ifadələri qəbul etmədilər. Amma ən azından istintaq bitəndə ifadələrlə tanış olublar, razı olmasaydılar, vəsatət verərdilər".

**Təqsirləndirilən şəxs Kənan Mədətovun anası İlhamə Mədətova üzünü jurnalistlərə tutaraq, onları birtərəfli yazmaqda ittiham etdi. Məhbus anası oğlunun şərləndiyini bildirdi:** "Kənan bildirdi ki, ibtidai istintaqdakı ifadələr ona məxsus deyil. Yazılı şəkildə bu ifadələrdən imtina etdi. Bildirdi ki, məhkəmədəki ifadələri düzgün hesab edir. Biz istintaqın belə getdiyini görüb vəkili dəyişdik. Hətta oğlumun adından belə sənədə qol çəkiblər. Oğlum insan ölümünə çox təəssüflənir. Kənan ora çay içmək məqsədilə gedib. Heç kəsi vurmayıb, hətta aralamağa çalışıb. Övladımın 21 yaşı bu gün tamam olur. Deyirlər ki, niyə yardım göstərməmisən. Mərhum döyülən kimi qaçıb. Oğlum onun arxasınca necə qaçmalı idi? Burada həkim səhlənkarlığı əsasdır. Ölkə prezidentindən, xarici təşkilatlardan işin düzgün aparılmasını tələb edirəm. Necə ki, zərərçəkmiş anadır, mən də anayam. Oğlumun günahsız yerə cəza çəkməsinə razı olmayacam. Mən elə övlad böyütməmişdim ki, kimisə öldürsün. Ekspertiza rəyi, kameradan hər şey görünür. Uşaq ona əli ilə də toxunmayıb".

**Növbəti məhkəmə prosesi 19 yanvar saat 10:30-a təxirə salınıb. Proses təqsirləndirilən şəxs Samir Mustafayevin ifadəsilə davam edəcək.**

**❑ Cavanşir ABBASLI**

# Şirvanın icra başçısı rayonu necə vəhhabi mərkəzinə çevirdi...

## Mərdan Camalovun radikal dindarlarla biznes əlaqəsinin olduğu deyilir

**Eldar Mahmudov tutduğu vəzifədən uzaqlaşdırılandan sonra onun göstərişi ilə həyata keçirilən bir çox qanunsuzluqlar üzə çıxmağa başladı. Məsələn, məlum oldu ki, ölkədə vəhhabiliyin yayılmasına, bu təriqət üzvlərinin biznes şəbəkəsinin şaxələnməsinə, genişlənməsinə "mahmudovçu"lar hər cür köməklik göstəriblər. Bunun qarşılığında Dubaydan "mahmudovçu"ların hesablarına milyonlar axıb. MTN-dəki cinayətkar çetenin bir neçə illik fəaliyyəti nəticəsində ölkədə sabitliyi poza biləcək bir cərəyanın möhkəmlənməsinə şərait yaradılıb. Eldar Mahmudovun əmisi nəvəsi Yalçın Mahmudovun Sumqayıtdakı vəhhabilərin başında dayanması haqda yazdıqlarımız da qeyd olunan fikirləri tamamlayır.**

E.Mahmudov vəzifəsindən çıxarılandan, MTN bir qurum kimi faktiki olaraq ləğv olunandan sonra belə təəssürat yaranmışdı ki, vəhhabilərin Azərbaycanda dayaqları məhv edilib. Amma gələn məlumatlar bunun əksini deyir.

Musavat.com-a daxil olan məlumata görə, müdafiə sənayesi naziri Yavər Camalovun qardaşı Mərdan Camalovun vəhhabi təriqəti ardıcılları ilə yaxşı münasibətləri var. Bu üzdən M.Camalovun icra başçısı olduğu rayonda - Şirvanda vəhhabilərin sıraları günü-gündən artmaqdadır. Əvvəllər də mətbuatda bu haqda yazılar dərc olunub.

Məsələn, 14 aprel 2014-cü ildə axar.az saytında "Şirvanda vəhhabilər fəallaşır" (http://axar.az/m/view.php?id=14508 ttp://axar.az/m/view.php?id=14508) sərlövhəli yazıda bu haqda məlumat verilir.

**Həmin yazıdan sitat:** "Şirvan şəhərində vəhhabilər fəallaşır. Sələfi təriqətinə üzv olanların sayı şəhərdə günbəgün artır. Deyilənə görə, bir neçə gün əvvəl bir qrup vəhhabi şəhərin mərkəzində yerləşən xüsusi mənzildə toplaşıb. Mənzili ibadət evi kimi istifadə edən sələfilər namaza gəlir, ibadət edir, müzakirələr aparırlar: "Əvvəllər də bu cür toplaşdıqlarını görürdük. Amma son bir ayda bu mənzilə gəlmələri daha da intensivləşib. Əvvəllər məscidə yığışardılar. İndi fərdi evlərdə gizlin şəkildə toplaşırlar. Bu da insanlar arasında narahatlığa səbəb olur. Təqribən 10-15 bahalı maşın hər gün bu evin qarşısında dayanır. Heç kimin onların nə etdiyindən xəbəri yoxdur".

Bundan başqa, 6 iyul 2015-ci ildə Şirvanda Müdafiə Sənayesi Nazirliyinin Telemexanika Zavodunun sexlərindən birində güclü partlayış baş vermişdi. 1 nəfərin öldüyü, 19 nəfərin yaralandığı partlayışdan sonra Şirvanda belə bir xəbər yayılmışdı ki, hadisədə vəhhabi izi var. Zavodun direktoru Usubağa Məmmədov "Yeni Müsavat"ın əməkdaşı ilə söhbətində məlumatın araşdırıldığını açıqlamışdı.

Qeyd edək ki, Şirvan rayonu ilə qonşu olan Salyan rayonunda, rəsmi məlumatlara görə, 30 vəhhabi var.

Onlardan biri sahib olduğu mağazaya yezid adı qoyaraq rayonda ciddi narazılıq yaratmışdı. Ara qarışandan və rayon rəhbərliyi məsələyə müdaxilə edəndən sonra yezidin adı mağazanın üzərindən söküldü. Şirvanda isə vəhhabilərin biznesinin genişlənməsi üçün münbit şəraitin olduğu deyilir.

Deyilənə görə, başçı Mərdan Camalovun vəhhabilərlə biznes şərikliyi var. Bu məlumatı redaksiyamıza verən mənbə bildirdi ki, bu haqda daha detallı faktlara sahibdir. Onun bildirdiyinə görə, Şirvanda radikal dindarların gücləənməsində Camalov qardaşlarının xüsusi marağı var. Söhbətin burda təkcə biznes maraqlarından getmədiyi vurğulanır.

**Mövzunu davam etdirəcəyik.**

**❑ E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 10 (6331) 15 yanvar 2016



# Böhran dövründə böhtan...

**Xalid KAZIMLI**

**Rayonlarda baş verən aksiyaları siyasi partiyaların, destruktiv qüvvələrin ayağına yazmağa lüzum yoxdur.**

Belə deyil. Bunu hamı bilir. Hər şey göz önündədir. Səbəblər bəs-bəllidir.

O siyasi qüvvələr budur, 20 ildir xalqı fəal olmağa, aksiyalara qoşulmağa çağırırlar, amma bu gün ayağa qalxanların 99 faizi bir dəfə kütləvi aksiyaya çıxmayıblar. Niyə? Onlara lazım deyildi.

Amma indi lazımdır. İndi adamlar ehtiyac hiss edirlər ki, ayağa durmalıdırlar, səslərini çıxarmalıdırlar. Çünki söykənə-söykənə getdikləri divar qurtarıb, böhran onların onsuz da xoş olmayan həyatını daha da qaraldıb.

Bu günlərə qədər "az aşım, ağrımaz başım" deyə aza qane olan, özlərini təhlükəyə, ailələrini iztiraba atmaqdan qaçan insanlar indi maddi sıxıntının içindədirlər. Burdan o yanası yoxdur. Geri çəkilməyə yer qalmayıb. Ona görə də çırpınırlar.

Bu baxımdan lokal aksiyaları "ölkədə ictimai asayişin pozulmasına hesablanmış qanunazidd əməllər" adlandırmaq və onu "AXCP və Müsavat Partiyasının fəalları"yla bağlamaq, "həmçinin bir sıra radikal və dini ekstremist qüvvələr tərəfindən təşkil edildiyini" iddia etmək həm absurddur, həm də özünü aldatmaqdır.

Bu, o deməkdir ki, dövlətin orqanizmində başlayan iltihab prosesinin diaqnozu düz qoyulmayıb. Diaqnoz düz deyilsə, müalicə də yanlış gedəcək, orqanizmin vəziyyəti daha da ağırlaşacaq.

Tutaq ki, son illərdə onsuz da sıraları xeyli seyrəlmiş müxalifət partiyalarının yerlərdəki olan-qalan üzvlərini də müxtəlif bəhanələrlə bir-bir dənləyib içəri doldurdular, bunun nə faydası olacaq? Dərhal yerdə qalanların, çörək davası edənlərin, sıxıntı çəkənlərin vəziyyəti düzələcəkmi, kasıbın cibinə 5 manat girəcəkmi, ərzaq mallarının qiyməti ucuzlaşacaqmı, yeni iş yerləri açılacaqmı, ən nəhayət, dünya birjalarında "Azerilayt" markalı neftin qiyməti artacaqmı?

Əlbəttə, heç biri olmayacaq. Ümumi böhran davam edəcək. Böhran davam etdikcə, yoxsulluq həddinin aşağısına keçənlərin sayı artacaq, başın ağrıması üçün lazım olan aşın miqdarı minimuma enincə, boğazlardan etiraz səsləri çıxacaq. Onda necə olacaq? Bayırda tutmağa müxalifətçi də qalmayıbsa...

Deməli ki, hər şeyi öz adı ilə çağırmaqda, baş verən hadisənin mahiyyətini düzgün təyin etməkdə, prosesin məcrasını dürüst müəyyənləşdirməkdə, bir də nəticələri real hesablamaqda yarar var.

Yox, əgər bunları, çox şeyi bilə-bilə duruma realist yanaşma kənara qoyulursa, rəqib siyasi qüvvələri diskreditasiya etmək yolu tutulursa, bu, həm problemin həllinə çalışmaqdan imtina deməkdir, həm də məkrli yoldur, əsas məqsədin hakimiyyətin nəyin bahasına olursa-olsun qorunması olduğunun təsdiqidir.

Deyək ki, hakimiyyəti qorumaq tarixi ənənədir, "müqəddəs iş"dir, siyasi-psixoloji instinktdir, bəs yaranmış problemi qəbul etməmək, belə bir problem yoxmuş kimi davranmaq nə deməkdir?

Bax, bu, artıq başqa problemdir və etiraza qalxan insanların hədəflərini dəyişdirə bilmək gücündədir.

Əgər bu gün kasıbçılıq və bahaçılıq əleyhinə səsini qaldıran insanlar görürlərsə ki, hökumət və məmurlar onların problemini həll etmək əvəzinə, ağızlarını yoxuşa sürürlər, qısa müddətdən sonra onlar belə bir fikrə gəlirlər ki, əsas problem hakimiyyətdə, məmurlardadır.

Son illər inqilablar, üsyanlar, vətəndaş-hökumət qarşıdurmaları, iğtişaşlar yaşayan ölkələrin təcrübəsinə nəzər salsaq görəcəyik ki, başlanğıcda hökumətin yaranmış problemi həll etmək əvəzinə zor yolu tutması, etirazları boğmaq, etirazçıları zərərsizləşdirmək taktikası seçməsi vəziyyəti qəlizləşdirib.

Məhz bu yanlış taktika gerdönməz proseslərə start verib və bir çox ölkələr dibigörünməz girdabın içinə yuvarlanıblar.

Bu gün etiraza heç də kefindən deyil, dərdindən çıxan adamlar görməlidirlər ki, səsləri, mesajları hökumətə, məmurlara çatıb və onlar imkan daxilində, gücləri çatdığı qədər problemləri həll etməyə çalışırlar. Yox, əksinə olsa, onlar görsələr ki, dedikləri ilə maraqlanan yoxdur, vəzifə adamları hər şeyi ört-basdır etməyə çalışırlar, onda xalqın üzü dönəcək.

Yüzlərlə belə örnəklər var.

# Siyəzənin deputatı tapıldı və danışdı

## Tahir Süleymanov: "Bunlar axı kimə, nəyə lazım idi?"

**Bölgələrdə baş verən etiraz aksiyaları deputatların fəaliyyətini də gündəmə gətirib. Bu arada bəzi deputatlar hətta mövcud duruma görə həmkarlarını da günahlandırır. Məsələn, AVP sədri, deputat Fəzail Ağamalı "Yeni Müsavat"a açıqlamasında deputatlar Tahir Süleymanov və Əsabil Qasımovu unun qiymətini qaldırmaqda ittiham edib və bildirib ki, onlar süni bahalaşmaya gedib əhalinin vəziyyətini ağırlaşdırmasınlar. "Bu deputatlara çağırış edirəm ki, xalqı çörəklə imtahana çəkməyin, xalqı dövlətdən narazı salmayın. Onlar bu dövlətdən qazanıblar, indi qazandıqlarını zəhmət çəkib xalqa xərcləsinlər. Bu durumda da pul qazanmaq həvəsinə düşməsinlər" deyə, F.Ağamalı əlavə edib.**

*Qeyd edək ki, Əsabil Qasımovun köməkçisi deputatın xaricdə olduğunu, yanvarın sonlarında ölkəyə dönəcəyini bildirib.*

*54 saylı Şabran-Siyəzən seçki dairəsinin deputatı Tahir Süleymanov isə bir neçə günlük sükutdan sonra telefonumuza cavab verdi və Siyəzəndə baş verən aksiya, qarşıdurmalar və digər məsələlərlə bağlı suallarımızı cavablandırdı.*

**- Tahir müəllim, Siyəzəndə nə baş verir, vəziyyətlə bağlı nə deyə bilərsiniz?**

- Prokurorluq bu barədə rəsmi məlumat verib. Heç bir qarşıdurma yoxdur. Müəyyən qüvvələr gəlib ora. Müsavatın, Xalq Cəbhəsinin üzvlərindən, sonra dini radikal adamlar var. 50-100 nəfər adam gəlib. Biz də ordaydıq. Əslində heç bir tələb də yoxdur. Onları dəvət elədik, soruşduq ki, nə istəyirsiniz, nə məsələdir? Dedilər, kreditlərimiz var, nə bilim, daha nə... Mən də dedim axı, camaatı buraya yığmaqla kredit, bank məsələsi həll olunmur. Rayonda heç bir gərginlik yoxdur, özüm də bu dəqiqə Siyəzəndəyəm. Ayın 12-13-ü də orda olmuşam.

**- Siz müxalifəti günahlandırırsınız, amma siyasi partiyalar bu məsələlərə qarışmadığını bəyan edir...**

- Orda həbs olunanların içərisində mənim dediyim insanlar var, mən onlara istinad edirəm.

**- Hətta həmkarlarınız da deyir ki, aksiyalar keçirən adamları qınamaq olmaz, onların problemlərini həll etmək lazımdır. Sizə isə sadə adamları günahlandırırsınız...**

- İndi bu, mənim öz fikrimdir. Orda 50-55 nəfər saxlanılıb, o adamlara istinadən deyirəm.

**- Deyirsiniz gərginlik olmayıb. Əgər gərginlik yox idisə, Daxili Qoşunların əsgərləri niyə rayona gedirdi? Qarşıdurmanı təsdiqləyən videokadrlar da var.**

- Gərginlik əsassızdır. Tutaq ki, orda daş atdılar, bir qadını, bir uşağı yaraladılar. Bunlar axı kimə, nəyə lazım idi?

**- Niyə əvvəlcədən gedib camaatla görüşmədiniz, əhalini sakitliyə çağırmadınız, onların sözünü hökumətə çatdırmadınız ki, belə gərginlik də yarandı?**

- Mən hər gün ordayam, həmişə də onlarla bir yerdə olmuşam. Parlament seçkiləri ayyarım bundan əvvəl keçirilib, kəndbəkənd görüşlərimiz də olub, bu məsələlər qaldırılmayıb. Bunların, sadəcə, dedikləri odur ki, banklara borcları var. Mən də müraciət etdim, ağsaqqallara dedim ki, bu şəkildə, belə söhbətlərlə bank məsələsi həll olunmur axı.

**- Sizin seçki dairəsində təqribən nə qədər adamın bank krediti var?**

- Mən onu dəqiq bilmirəm, onların dediklərini sizə deyirəm. Nə bilim ki, kimin nə qədər borcu var? Təəssüf ki, məndə bu barədə məlumat yoxdur, olsaydı, deyərdim. Mən hər gün Siyəzəndə oluram, amma ayın 12-sinə qədər burda bu cür söhbətlər olmayıb. Mən Bakıda yaşamıram, yaşayış yerim buradır. Hər gün də bu camaatın arasındayam.



**"Yerli adam necə olur, özün təsəvvür elə, hamısı "çerez-çerez" bir-birinə qohum-əqrəbadır"**

**- Deputat həmkarınız Fəzail Ağamalı sizə və Əsabil Qasımova müraciət edib dedi ki, camaatı çörəklə imtahana çəkməyin...**

- *(Sualı yarımçıq kəsir)* Mən hazırda icra hakimiyyətindəyəm, adamlarla görüşürəm. Mənim o barədə məlumatım yoxdur, heç bir şey oxumamışam, düzü, mənim buna vaxtım da olmayıb.

**- Mən müraciətin məzmununu sizə deyirəm. Həmkarınız bildirib ki, indiyə qədər dövlətdən yararlanıbsınız, heç olmasa bundan sonra xalqı düşünün...**

- *(Yenə müdaxilə edir)* Mənim qardaşım, kim nə deyib, bilmirəm. Mən də deyirəm ki, oxumamışam. Tutaq ki, deyirlər kimsə sizin haqqınızda bir söz deyib. Siz onu oxumasanız, nə deyə bilərsiniz? Oxumadığım, bilmədiyim şey barədə heç bir məlumat verə bilmərəm.

**- Yaxşı, siz və həmkarınız Əsabil Qasımov iri un şirkətlərinin və un dəyirmanlarının sahiblərisiniz...**

- *(Bu dəfə də suala imkan vermir)* Mən un şirkətinin rəhbəri deyiləm. 2000-ci ildən millət vəkiliyəm, un məsələsinə də baxmıram.

**- Hər halda, təsisçisiniz...**

- Xeyr, heç təsisçi də deyiləm. Bu məsələnin mənə heç bir aidiyyəti yoxdur.

**- Elə isə həmkarınız niyə sizin adınızı çəkib?**

- Yenə deyirəm, axı mən onun dediklərini oxumamışam, bilmirəm nə deyib. Gəlin bir-birimizə hörmətlə yanaşaq da...

**- Hazırda Siyəzəndə vəziyyət necədir? Sosial şəbəkələrdə xəbərlər dolaşır ki, gərginlik hökm sürür...**

- Qəti şəkildə. Mən sizə məsuliyyətimlə deyirəm, tam sakitlikdir. Bu dəqiqə icra hakimiyyətindən çıxmışam, Mədəniyyət Sarayının qabağındayam. Qəti belə söhbətlər yoxdur. Hər şey öz qaydasındadır.

**- Son seçki sizin üçün heç də asan keçmədi, rəqibiniz üstün görünürdü. Bu gün necə, insanlarla dil tapa bilirsinizmi, sizi eşidirlərmi?**

- Burda nə mənim əleyhimə olan adam olub, nə də... Mən burda yerli adamam, özümə rəqib, ya alternativ də görmürəm.

Seçkilər vaxtı 5-10 nəfər olub, seçki də artıq geridə qalıb. Bunlar hamısı mənim camaatım, xalqım, qohum-əqrəbamdır. Yerli adam necə olur, özün təsəvvür elə, hamısı "çerez-çerez" bir-birinə qohum-əqrəbadır.

**- Amma Elza Seyidcahan dedi ki, ordan mən seçilmişdim...**

- İndi nə deyim? Seçiləydi də.

**- Sonrakı günlərdə keçmiş rəqib kimi görüşüb-danışdınızmı?**

- Mən Elza Seyidcahanı tanımıram. Onunla heç bir tanışlığım yoxdur, heç onunla görüşüm də olmayıb. Nə mən onun telefonunu bilmirəm, nə də o mənim. Mən ona işlərində ancaq müvəffəqiyyətlər arzulayıram.

**- Əgər siyəzənlilərin səsini qazanmısınızsa, onda niyə əhali sizin yanınıza gəlib sözünü deməkdənsə, aksiya keçirməyə qərar verdi?**

- Mənim yanımda indi adamlar var, danışa bilmirəm, bağışlayın...

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı həmkarları Milli Məclisin digər üzvləri Tahir Süleymanovla Əsabil Qasımovun adlarını çəkərək, onları ölkədə unun qiymətinin süni şəkildə bahalaşmasına görə sərt tənqid edib. Fəzail Ağamalı hər iki deputatın un istehsalı ilə məşğul olduqlarını dilə gətirərək, qiymətlərin onlar tərəfindən qaldırıldığını deyib. Artıq qarşı tərəfdən deputat Fəzail Ağamalının ittihamlarına cavab verilib.**

**Lakin "Yeni Müsavat"ın suallarından yayınan, məsələdən "xəbərsiz" olduğunu deyən Tahir Süleymanov modern.az saytına açıqlamasında həmkarının ittihamına reaksiya verib, deyib ki, F.Ağamalının dedikləri əsassızdır. "Şimal bölgəsində unun bir kisəsi 26 manatdır və buna uyğun olaraq çörəyin də qiymətində artım olmayıb. Unun qiymətinin qalxması haqqında informasiyalar əsassızdır və yaxşı olardı ki, hər kəs bildiyi məsələdən danışsın. Bu gün ölkəmizin 5-6 aylıq taxıl ehtiyatı var və unun qiymətində hər hansı artım olmayıb" - deyə, T.Süleymanov bildirib.**

**Elşad PAŞASOY**

# Tanınmış ziyalı İlham Rəhimovun 65 illiyinə




**XX əsr tarixə qovuşub arxada qaldı və biz o illər haqqında, həmin dövrdə Azərbaycanın maarifinə, elminə, mədəniyyətinə ciddi dəstək olmuş insanlardan danışanda daha çox Hacı Zeynalabdin Tağıyevin adını çəkirik. Onu böyük minnətdarlıqla yada salırıq və Azərbaycan xalqına xidmətlərini yüksək dəyərləndiririk. Əslində xeyriyyəçilik ənənəsi Azərbaycanda ilk olaraq tanınmış mətbuat xadimi Həsən bəy Zərdabinin fəaliyyəti ilə başlayıb. O, 1972-ci ildə "Müsəlman Xeyriyyə Cəmiyyəti"ni yaradanda qarşısına elə bu məqsədləri qoymuşdu: milləti elmləndirmək, maarifləndirmək, ona bilgi vermək, problemlərinin həllinə yardımçı olmaq. Sonradan Azərbaycanın əksər bölgələrində H.Zərdabi ənənəsi davam etdirildi və onlarla belə təşkilatlar yaranıb, fəaliyyət göstərməyə başladı.**



Eyni qaydada tanınmış ziyalı N.Nərimanov 1894-cü ildə ilk qiraətxana yaradıb azərbaycanlıların savadlanmasını, bilgilənməsini təmin etdi. Yenə H.Z.Tağıyevin xidmətlərini xatırlatmaq istərdim. Müqəddəs kitabımız olan Quranın Azərbaycan dilinə tərcümə edilib, nəşr olunmasına da o, böyük köməklik göstərmişdi. 1897-ci ildə Azərbaycan mətbuatının ən ağır dövründə H.Z.Tağıyev "Kaspi" qəzetini almış və ilk azərbaycanlı redaktor Ə.M.Topçubaşovu oraya işə cəlb etmişdi. Nəticədə Azərbaycanın böyük bir ziyalı ordusu həmin qəzetin ətrafına toplaşmış və qəzetin səhifələrində ciddi yazılarla çıxış etmişdilər. Həmin ziyalıların bəzilərinin kimliyinə diqqət edək: M.Şahtaxtinski, H.Zərdabi, Ə.Ağaoğlu, Ə.Hüseynzadə və b.

1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin hər məqamı haqqında xoş sözlər söyləmək mümkündür. Lakin bir fəaliyyəti ayrıca qeyd edirik ki, məhz həmin illərdə 100-ə yaxın tələbə pulsuz olaraq xarici ölkələrdə təhsil almağa göndərildi. Və bununla da əslində yüksək inkişafa malik olacaq elmli bir Azərbaycan cəmiyyətinin əsası qoyuldu.

1920-ci ildə Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra burada təkpartiyalı bir sovet rejiminin qurulduğunu görən böyük bəstəkar Ü.Hacıbəyli millətə xidmətini özünü bütövlükdə musiqiyə həsr etməkdə gördü. Yəni ictimai-siyasi məqalələr yazmağı bir kənara qoyub milli musiqimizin yaşadılmasında ciddi işlər görməyə başladı. Əslində o zamana qədər Ü.Hacıbəyli "İrşad", "Həqiqət", "İqbal", "Azərbaycan" və digər mətbuat orqanlarında 600-ə qədər müxtəlif mövzulu məqalələrlə çıxış etmişdi. Üzeyir bəy sovet rejiminin sərt qaydaları çərçivəsində millətə onun xidmətinin yalnız musiqidə olacağını anlamışdı. Və yaxşı ki, o bunu etdi və ilk milli konservatoriyanı yaratdı, "Azərbaycan musiqisinin əsasları" kitabını hazırladı, çoxlu sayda xalq musiqilərimizi nota köçürdü. Nəhayət, hamımızın qəlbini hər zaman riqqətə gətirən "Koroğlu"nu yazdı.

Millətə faydalı olmağı bacarmaq! Bu nə qədər çətin olsa da, o qədər də şərəflidir və müqəddəsdir! Yuxarıda adını çəkdiyim ziyalı və imkanlı iş adamlarımızı tarixdə yaşadan, onlara millət sevgisini bu gün də aşılayan belə həyatı yaşaya bilmək bacarıqları olub.

Qeyd edim ki, bütün həyatını Azərbaycan xalqının müstəqil və azad yaşamasına həsr etmiş Azərbaycanın görkəmli dövlət xadimi M.Ə.Rəsulzadə özündən sonra çox zəngin bir irs qoyub gedib. Onun haqqında ilk məlumatlara və yazılarının nəşrinə 1988-ci illərdən başlanıldı. İlk dəfə onun haqqında məqaləni 1988-ci ildə tədqiqatçı M.Əliyev yazdı. Sovet hakimiyyəti dövründə - 1991-ci ildə!

M.Ə.Rəsulzadə haqqında ilk tarixi-publisistik kitabı bu sətirlərin müəllifi yazıb nəşr etdirdi. Azərbaycan müstəqillik əldə etdikdən sonra isə onun əsərlərinin ilk cildini professor Ş. Hüseynov nəşrə hazırladı. Bu nəşrlərlə tanış olan azərbaycanlı oxucular M.Ə.Rəsulzadənin Azərbaycanın tarixinə, mədəniyyətinə, ədəbiyyatına aid zəngin bir irsi ilə tanış oldular. Məlum oldu ki, bu irslə tanışlıqdan sonra bizim bu sahələrdə olan tarixi kitablarımız yenidən yazılmalıdır. Lakin bu zəngin irsin toplanılıb nəşr edilməsi, M.Ə.Rəsulzadənin müxtəlif ölkələrdəki müstəqillik mücadiləsinin araşdırılıb yazılması tədqiqatçıların öz cüzi və o qədər də geniş olmayan şəxsi imkanları hesabına baş verirdi *(əslində bu problem indi də həll edilməyib və tədqiqatçıların öz məhdud imkanları ilə onun haqqında kitablar yazılır, araşdırmalar aparılır).* Bir qədər sonra bu irsin nəşri və çap edilməsi problemlərinə də müəyyən qədər dəstək olan ziyalı insanlarımız tapıldı. M.Ə.Rəsulzadənin "Əsərləri"nin 2-ci cildinin nəşrinə tanınmış iş adamı M.Mahmudov, 3-cü cildinin nəşrinə naşir Ş.Xuduoğlu, M.Ə.Rəsulzadə haqqında olan ensiklopediyanın nəşrinə Moskvada yaşayan ziyalımız F.Fərəcov dəstək oldular.

Qeyd edim ki, tanınmış Azərbaycan ziyalısı və xeyriyyəçisi olan İlham Rəhimov da dəyərli sözlərə layiq bir insandır. İlham müəllim haqqında əvvəldən də məlumatım vardı. Onun Leninqrad ( indiki Sankt Peterburq) Universitetində oxuduğunu, ciddi savada və biliyə sahib olduğunu eşitmişdim. 1980-ci illərdə mən də həmin universitetdə təhsil almışdım. Və indi buranın məzunu olmuş bir Azərbaycan ziyalısı haqqında xoş sözlər eşitməkdən hər zaman məmnunluq duyuram.

İ.Rəhimov öz savadı və bacarığı ilə Sankt Peterburq Universitetini bitirdikdən sonra orada aspiranturaya daxil olmuş, müdafiə etmiş, hüquq elmləri namizədi olmuşdur. Sonralar isə Azərbaycan Elmlər Akademiyası və Respublika Ədliyyə Nazirliyi sistemində müxtəlif vəzifələrdə işləyib. 1988-ci ildə Leninqrad Universitetində doktorluq dissertasiyası müdafiə etmiş, hazırda isə professordur. 1996-cı ildən 2000-ci ilədək müxtəlif ali məktəblərdə hüququn ayrı-ayrı sahələrindən dərs deyib, həmçinin Ali Diplomatiya Kollecində elmi işlər üzrə prorektor vəzifəsində çalışıb.

100-ə yaxın elmi məqalənin, hüquq elminin müxtəlif sahələrinin, xüsusilə cinayət hüququnun, islah əmək hüququnun, qanunvericilik və məhkəmə fəaliyyətinin fundamental problemlərinə həsr edilmiş altı monoqrafiyanın, eləcə də "Prestupnost i nakazanie" ("Cinayətkarlıq və cəza") və "Filosofiya prestupleniya i nakazaniya" ("Cinayət və cəzanın fəlsəfəsi") adlı kitabların müəllifidir. Hər iki kitab türk dilinə tərcümə olunmuşdur. Hazırda ingilis dilinə tərcümə olunmaqdadır.

1992-93-cü illərdə hazırlanmış Məhkəmə Hüquq İslahatları Konsepsiyasının ilk müəllifidir. 1994-cü ildə isə cinayətkarlığa qarşı mübarizənin dövlət proqramını hazırlayıb.

1994-cü ildən Azərbaycan Hüquqşünaslar İttifaqının sədri, 2006-cı ildən isə Beynəlxalq Hüquqşünaslar İttifaqının vitse-prezidentidir. 2000-2007-ci illərdə "LUKoyl" Neft Şirkətində işləyib. 2005-2012-ci il Azərbaycan Sindo-ryu Karate Federasiyasının prezidenti olub.

2004-cü ilin aprelin 18-də Rusiyanın ən nüfuzlu akademiyalarından olan Təhlükəsizlik, Müdafiə və Qanunçuluq Akademiyasının (Rossiyskaya Akademiya Bezopasnosti, Oboronı, Provoporyadka) Böyük Elmi Şurasının iclasında həmin akademiyanın akademiki seçilib. İ.Rəhimov Rusiyanın Təhlükəsizlik, Müdafiə və Qanunçuluq Akademiyasının akademiki adına layiq görülən ikinci azərbaycanlıdır.

2005-ci ildə İlham Rəhimov Rusiyanın Təhlükəsizlik, Müdafiə və Qanunçuluq Akademiyası tərəfindən "Rusiya və Azərbaycan arasında dostluq və əməkdaşlığın inkişafında şəxsi töhfəsinə görə" ikinci dərəcəli Böyük Pyotr ordeni ilə təltif edilib. Qeyd edək ki, İ.Rəhimov Rusiyanın bu ali mükafatına layiq görülən ilk azərbaycanlıdır.

2009-cu ilin avqust ayının 27-də Qara Dəniz-Xəzər Dənizi Əməkdaşlıq və Tərəfdaşlıq üzrə Beynəlxalq Fondunun Direktorlar Şurasının qərarı ilə fondun fəxri üzvü seçilib, xalqların və dinlərin yaxınlaşması, vətəndaş cəmiyyətinin möhkəmləndirilməsindəki xidmətlərinə görə fond tərəfindən mükafatlandırılıb. 2011-ci ilin yanvar ayında Azərbaycan Prezidentinin sərəncamı ilə ona Əməkdar Hüquqşünas adı verilmişdir.

**Göründüyü kimi, tanınmış ziyalı İ.Rəhimov istedadı, qabiliyyəti ilə faydalı və maraqlı bir ömür yaşayır.**

**Nəsiman YAQUBLU**
***Tarix üzrə elmlər doktoru, Bakı Dövlət Universitetinin dosenti***

YENİ MÜSAVAT
N 10 (6331) 15 yanvar 2016

# Rayonlardakı narazılığı müxalifətə bağlamaq cəhdi etiraz doğurdu

## Deputat antiböhran tədbirlərinin anonsunu verdi; İqbal Ağazadə: “Burada müxalifət izi axtarmağın, vətəndaşın etirazına siyasi çalar verməyin heç bir mənası yoxdur”

**Lənkəranda, Siyəzəndə, Füzulidə, Biləsuvarda, Ağcabədidə və Ağsuda vətəndaşların küçələrə çıxaraq hökumətdən çörək və iş tələb etməsi ölkənin çox ciddi iqtisadi böhranın astanasında olmasından xəbər verir. Belə bir vəziyyətdə 55 aksiyaçının həbsi, aksiyaların güc tətbiq etməklə dağıdılması, tutulanların ən müxtəlif qruplara qaynaq edilməsi cəhdləri böhranın aradan qaldırılmasına yardımçı ola bilərmi?**

Çörək istəyənə “niyə çörəksizsən” sualını vermək əvəzinə bibər qazına “qonaq” etmək, rezin güllə qarşısında qoymaq nə dərəcədə adekvat addımdır?

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat **Vahid Əhmədov** deyir ki, xalqla danışıq aparmağın tərəfdarıdır: “Mən onun tərəfdarıyam ki, vətəndaşla danışmaq lazımdır. Yerli icra hakimiyyəti orqanları insanlarla işləməli, onlara kömək etməlidirlər. Bunun əvəzində gedib başqa işlərlə məşğul olmamalıdırlar. Küçəyə çıxan vətəndaşla danışıq aparmaq lazımdır. Onları başa düşürük, bilirik ki, çətin durumdadırlar. Adamlar ailələrini dolandırmalıdırlar. İcra hakimiyyətləri kabinetlərdən çıxmalı, xalqın arasında olub əhali ilə işləməlidirlər. İş yerlərinin olmamasının günahkarları ilk növbədə icra başçılarıdır. Rayona təyinat alan kimi ilk işləri köhnə başçının tikib qoyduqlarını söküb yenidən tikməkdir. Bunun əvəzinə əhalinin məşğulluğunu təmin etmək üçün istehsal sahəsi, sex açmalıdırlar. Bəzi icra başçıları var ki, əhali ilə görüşlər təşkil edir, vətəndaşın dərd-səri ilə maraqlanır, problemlərinin həllində yardımçı olmağa çalışırlar. Daimi təmas var. İnsanları həbs etməklə böhran aradan qalxan deyil”.

**V.Əhmədov deyir ki, problemlərin aradan qaldırılması üçün hökumətə təkliflər veriblər:** “Banklara borclu olan vətəndaşlarla bağlı təkliflərimiz olub. Bu gün Neft Fondu banklarda problem yaranmasın deyə 200 milyon dollar ayırdı. Cənab prezidentin göstərişinə əsasən, hökumət addımlar atır və yaxın zamanlarda bəhrəsi yəqin ki, respublikanın həyatında görünəcək. Biz millət vəkili olaraq Azərbaycan hökuməti ilə, Mərkəzi Bankla müəyyən danışıqlar aparırıq ki, iqtisadi böhran respublikada yüngül keçsin. Devalvasiyanın nəticələrinin aradan qaldırılması üçün təkliflər vermişik.

Hökumət bizim əhalinin banklara olan 10 min dollara qədər kreditlərini 1 manat 5 qəpik məzənnə götürülməklə ödəməsinə şərait yaradılması təklifimizə artıq baxıb, məlumat verdilər ki, yanvarın 20-dən sonra bu proses həyata keçiriləcək. Unun, çörəyin, dərmanın qiyməti ilə əlaqədar müzakirələr aparırıq".

**V.Əhmədov bildirdi ki, rayonlar mərkəzləşdirilmiş qaydada ayırmalar dayandırılacaq:** “Növbəti illərdə mərkəzi büdcədən rayonlara dotasiyaların tədricən azaldılması, ümumiyyətlə kəsilməsini planlaşdırırıq. Rayon icra başçıları rayonlarda iş yerlərinin yaradılması ilə məşğul olmalıdırlar. Hökumət bu məsələləri nəzərdən keçirir. Biz bu tədbirlərin mümkün qədər tez bir zamanda gerçəkləşməsini də demişik. Əhali görməlidir ki, onun minimal da olsa, qida ehtiyaclarını ödəmək üçün addımlar atılır. Əhalini başa düşmək lazımdır. Həbslər çıxış yolu deyil. Amma asayişin pozulması da çıxış yolu deyil. Sabitliyin qorunması vacib məsələdir”.





Vahid Əhmədov



İqbal Ağazadə

**Sabiq deputat İqbal Ağazadə deyir ki, hökumətə ölkədə yaşanan böhranın aradan qaldırılması üçün proqram təqdim ediblər:** “Hökumətin aclıqdan əziyyət çəkən əhaliyə qarşı yanaşması kökündən yanlışdır. Lənkəranda, Siyəzəndə, Füzulidə, Biləsuvarda, Ağcabədidə və Ağsuda yaşananlarla bağlı verilən bəyanat yanlışdır. Əslində etiraz edən xalqın emosiyalarının bir qədər də coşdurulmasıdır. Adam çörək istəyir, başqa şey istəmir ki? Adam çörəyi ala bilməsi üçün iş istəyir, başqa şey istəmir ki? Adamların siyasi tələbləri yoxdur! Şüarı ortada yoxdur! Heç bir siyasi tələbi olmayan vətəndaşla bu şəkildə davranmaq çox yanlışdır və hökumətin bu istiqamətdə ardıcıl səhvləri oldu”.

**İ.Ağazadə bildirib ki, hökumətə böhrandan çıxmaq üçün proqram təqdim ediblər:** “Hökumət təqdim etdiyimiz proqramla hərəkət etsə, ölkədə heç bir qarşıdurma olmayacaq, iqtisadi böhranın aradan qaldırılması ləng də olsa baş tutacaq. Ən başlıcası iqtisadi böhranla siyasi böhran birləşməyəcək. Bu gün Azərbaycanda iqtisadi böhran var. Xarici münasibətlərdə isə çox ciddi siyasi böhran yaşanır. Bunu hər kəs bilməlidir. İqtisadi böhran bir qayda olaraq son nəticədə sosial-siyasi böhrana çevrilir. Bunun baş verməməsi üçün dialoqa ehtiyac var. Rayonlarda camaatı küçəyə çıxaran aclıq, səfalət, işsizlikdir. Əvvəllər rayonlarda yaşayan ailə başçılarının böyük əksəriyyəti Bakı şəhərində tikinti sektorunda çalışırdı. Statistika Komitəsinin rəsmi məlumatına görə, layihələrdə 911 minə yaxın insan çalışırdı. Bu insanların 541-i tikinti sektorunun payına düşürdü. Tikinti sektoru iflic vəziyyətindədir. Bu sektorda çalışanların təxminən 80 faizi rayonlardan Bakıya gələn vətəndaşlarımız idi. Gündəlik qazandıqları vəsaitin böyük hissəsini rayona göndərir, burada kirayə haqqı ödəyib birtəhər yaşayırdılar. Tikinti sektorunda iş dayanıbsa, deməli, həmin adamların böyük bir hissəsi rayonlara qayıdıb. Rayonlarda isə iş yeri yoxdur. Həmin adamların gündəlik ərzaq məhsullarını almağa da imkanları yoxdur. Təbii ki, bununla da aclıq başlayır”.

**İ.Ağazadə müxalifətçiləri prosesə qatma cəhdlərinin səbəbini belə izah etdi:** “Hakimiyyət prosesləri ənənəvi qaydada yatırtmaq, durdurmaq niyyətindədir. Amma bu ənənənin özündə törəmə səbəblər fərqlidir. Törəmə səbəbləri fərqli olduğuna görə bu yanaşma doğru deyil. Törəmə səbəbləri başqa olduğuna görə burada müxalifət izi axtarmaq, vətəndaşın etirazına siyasi çalarlar verməyin heç bir mənası yoxdur. Adamlar nə müxalifətə, nə hakimiyyətə, nə də bir başqa qüvvəyə görə küçəyə çıxıb. Adamlar çörək istəyir. Çörək olmayacaqsa, adamlar yenə də küçəyə, meydana çıxacaq. Heç kim balasını zillətin, zillətin, aclığın içində qoyub evdə oturmayacaq, küçəyə çıxacaqlar. Bunu həll etmək lazımdır. Bura müxalifəti zorla qaynaq etmək, xaotik etirazları müxalifətin təşkil etdiyini söyləmək düzgün deyil. Adamlar çörək istəyirlər. Hakimiyyətin içində olan millət vəkilləri belə hökuməti, ayrı-ayrı inhisarçıları tənqid edirlər. Bu tərəfdən də aclığın küçəyə çıxardığı 55 nəfəri güc strukturları həbs edib adlarını müxalifətçi qoyur. Bu ziddiyyətlər ondan xəbər verir ki, prosesin özünə sistemli və ardıcıl, həm də tənqidi yanaşmaları yoxdur”.

**İ.Ağazadə deyir ki, hakimiyyət proseslərə adekvat yanaşmır:** “Əvvəla, böhranın olduğunu etiraf etmək lazımdır. Böhranı etiraf etmədən çıxış yollarını müəyyən etmək mümkün deyil. Hakimiyyət böhran anlayışını yaxın buraxmaq istəmir. Deyirlər ki, dünyanın hər yerində belədir. Nəzərə almırlar ki, dünyanın heç bir yerində vəziyyət Azərbaycandakı qədər deyil. Çünki dünyanın heç bir yerində neftdən bu qədər asılılıq yoxdur. Azərbaycan dövlətində ixracat potensialının 95 faizi karbohidrogen ehtiyatlarının fonunda həyata keçirilib! Bu o deməkdir ki, ölkə bir sektorun üzərində oturmuşdu. O sektor bizdən asılı olmayan, özü də bizim qarşısını ala bilməyəcəyimiz səbəbdən çökdü. Demək, biz idarəetmədə və iqtisadiyyatda fərqli modellər tətbiq etməliyik. Bu işlər gələn neft pullarının hesabına edilməli idi. Amma biz bunu etmədik və bu nəticə alındı. İndi də fəsadları aradan qaldırmaq üçün yenə də yanlış yollara baş vururuq. İqtisadi böhranın aradan qaldırılması üçün sistemli və ardıcıl addımlar atılmasa, sosial-siyasi böhran qaçılmaz olacaq, ölkə çox ciddi kataklizmlərlə üz-üzə qalacaq”.

❑ E.MƏMMƏDƏLİYEV

# Rayon təşkilatlarının sədrləri etiraz aksiyalarından danışdılar

**Rəşid Nəcəfli:** “İnsanlar işsizlikdən, aclıqdan, icra başçısının zülmündən cana doyublar və etirazlarını bildirirlər”
**İltizam Əkbərli:** “Vəziyyət ağırdır, hər an İmişlini etiraz dalğası başına götürə bilər”

**Yanvarın 12-də və 13-də ölkənin 4-5 rayonunda qiymət artımına və işsizliyə qarşı keçirilən etiraz aksiyalarının təşkilində hakimiyyət orqanları Müsavat Partiyasını və AXCP-ni təqsirkar elan etdi. Artıq aksiyanın keçirildiyi rayonların bir neçəsində (Lənkəran və Siyəzən) hər iki partiyanın yerli təşkilatlarının rəhbərləri, fəalları polis tərəfindən saxlanılıb.**

Etiraz aksiyalarının keçirildiyi rayonlardan olan Ağcabədidə hələ ki bu cür həbslər həyata keçirilməsə də yerli müxalif fəallara hədə-qorxu gəlinir. Müsavat Partiyası Ağcabədi rayon təşkilatının sədri **Rəşid Nəcəfli** bu barədə açıqlamasında bildirdi ki, etiraz aksiyalarının təşkilində heç bir rolları olmayıb: “Ağcabədi rayonunda etiraz aksiyası Müsavatın və AXCP-nin təşkil etdiyi aksiya deyildi. Bu etirazların sosial səbəbləri var. Bu, sırf xalq narazılığıdır. Əhali aclıq çəkir, səfalət içindədir. Səbəbkar isə icra başçısı Şahin Məmmədovdur. İcra başçısı insanları insan yerinə qoymur, nə istəyir onu da edir. Bu adam Ağcabədi rayon su kəmərinin 18 kilometrini doğradıb satdı. Suyu isə kanala birləşdirib. Əhaliyə çirkab su içirdir. İnsanlar işsizlikdən, aclıqdan, icra başçısının zülmündən cana doyublar və etirazlarını bildirirlər. Burada müxalifət partiyalarının heç bir təşkilatçılığından söhbət gedə bilməz. Ailə başçısı övladına çörək ala bilmir, ayaqqabı alıb məktəbə göndərə bilmir. Belə acınacaqlı vəziyyətdə olan valideyn etiraza qalxırsa, bunda Müsavatı günahlandırmaq absurddur. Biz xalqın bu acınacaqlı durumuna acıyırıq, biz də xalqın bir hissəsiyik və biz də səfalətin, məhrumiyyətlərin içindəyik. Hansısa müxalifət partiyasının üzvü dözülməz yaşayışına görə etiraz edirsə, bunu təşkilatçılıq kimi qələmə vermək də absurddur. Ağcabədidə fəlakətli vəziyyətdir”.

**Müsavat Partiyasının İmişli rayon təşkilatının sədri İltizam Əkbərli də bildirdi ki, rayonda əhalinin yaşayış səviyyəsi acından qırılmaq həddinə çatıb. Rayonda işsizlik sosial fəlakət həddindədir. Elə bir ailə yoxdur ki, banka kredit borcu olmasın:** “Rayona vaxtilə ayrılan pullar emal və istehsal sahələrinin açılmasına sərf edilmədi. Rayonun inkişaf layihəsi adı altında mənasız hasar çəkilişləri həyata keçirildi və vəsaitlər mənimsənildi. İcra başçısı rayonun bütün torpaqlarını 3-4 adama satıb. Beləliklə də rayonda çox ciddi təbəqələşmə əmələ gəlib. 3-4 nəfər ağlagəlməz səviyyədə varlanıb, əhali isə taleyin ümidinə buraxılıb. Son bahalaşma və işsizlik isə artıq insanların çörək əldə etmək imkanını belə əlindən alıb. Hər an İmişlini etiraz dalğası başına götürə bilər. Bu gün narazılıqlar, etiraz edənlər siyasətdən uzaqdırlar. Onlar, sadəcə olaraq, artıq ailələrini saxlaya bilməyin qeyri-mümkünlüyünü gördükləri üçün özləri küçələrə çıxırlar. Bugünkü etirazlarda müxalifəti günahlandırmaqdansa hökumət əhalinin vəziyyətinin düzəlməsi üçün ciddi addımlar atmalıdır. Əks halda, ağır sosial-iqtisadi durum ağlagəlməz nəticələr törədə bilər”.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 10 (6331) 15 yanvar 2016

**"Bilmirəm, nə zamansa diqqət edib fərqinə varmısınız ya yox, amma evdə hər otağın güzgüsü fərqli və fərdi olur. Hamam otağı qarışıq. Biri adamı olduğundan daha gözəl, cazibədar, digəri arıq, eybəcər, şişman, başqa biri kobud, bir başqası yorğun ya da miskin göstərir. O evdə yaşayan hər kəs də, dolayı desək, özünə sərf edən güzgünü seçir. Yəni ən yaxşı göründüyünü. Beləcə, adamlar həmin güzgüyəcə qapılıb özgüvənini, bəzən isə hətta həyat eşqini təyin edirlər. Fəqət... bir tip də güzgü var ki, Tanrı hər kəsi ondan qorusun - bədəni arıq saxlayıb başı iri göstərir. Beləsi ən çox evin kuluarlarında olur. Qapının tam çıxacağında. Yol üstdə. Yekəbaşlığın da, nadanlığın da təməli bax həmin güzgüdür. Elə yol üstdəcə səni aldadır, bu eyforiya ilə səni cəmiyyət içinə yönəldir, sənə fətva verir, səndə qəhrəman təcəssümü yaradır, səni ovsunlayır, səni öz qəlibindən çıxarır. Ya da elə əsl qəlibinə oturdur"**

***(Ertil, "Nadanlar" əsərindən)***

# Deputatdan Eldar Sabiroğluna sərt cavab



## Elşən Musayev: "Mehdiyevin otağından dal - dala çıxdığın zamanları xatırla!"

***

Eldar Sabiroğlu üsyan havasındadır, od püskürür. Nə vaxtdır. Ramiz Mehdiyevə qarşı. Dediyini deyib, uydurduğunu uydurub, malaladığını malalayıb. Amma dayanmır. Çəninin qırmızı işığı yanan maşınlar kimi "zapravka" görünməyən "alan"da direşib qalıb. Balaca uşaqlar "samokat"ı necə avtomobil zənn edib sürürlərsə, bu da elinə qələmini alıb haralarasa gedir. Öz aləmində nəsə edir. Mehdiyevdən bir cavab, bir reaksiya gəlsin deyə. O da gəlmir ki, gəlmir...

Əslində yazmayacaqdım bu yazını. Çün Sabiroğlu özünün və "polatalemdarlıq" eşqinə düşən oğlunun eksklüziv açıqlamalarını hamıdan öncə, təmənnasız dərc edən "Yeni Müsavat"ı sifarişli yazı yazmaqda, kiminsə ruporu olmaqda ittiham etməyi bacarıbsa, bu damğanı mənim alnıma dünəndən yapışdırar. Heç uf demədən. Söhbətə də elə bu minvalla davam edim. Deməli, dünən "Azadlıq"da belə bir sərlövhə gedib: "Eldar Sabiroğlundan "Yeni Müsavat"a sərt cavab". Məğz də budur ki, sayt adamın cavab haqqını tanımayıb və deme, Arifoğlu iqtidara işlədiyi üçün əvvəldən Eldar bəyə qıcıqlı imiş. Bu fakt isə nəhayət Elşad Paşasoyun məqaləsində özünü açığa çıxarıb. Özü də o divan-kreslo ustaları pərçimli parçaları bir-birinin içinə taxanda deyərlər e..."aldada-aldada sal", bax Sabiroğlu da eyni taktikadan istifadə edərək "Yeni Müsavat"ın GUYA iqtidara xidmətini sübut və təqdir edibmiş kimi "xoş" sözlər deməyi, bu addımın media camiəsi üçün əslində pozitiv hal olduğunu xatırlatmağı, əlqərəz, söhbətə "aldada -aldada" girməyi və sonuc etibarilə Kərimlinin qurumuş dəyirmanına su tökməyi də unutmayıb. Olsun. Sözüm yox. Zatən 60 il yediyi qaba kor baxanın Arifoğlunu ittiham etməyi deyil, etməməyi absurd olardı. Amma Rauf bəydən küsənlər niyə alt qapı, dublyor, ikinci əl kimi "Azadlıq"ı seçirlər, bax bir tək bunu anlamadım getdim. Əslində anlayıram da...fəqət, anladığıma anlam verə bilmirəm. Və ya özünə müxalifətçi deyən kəs bütün manşet, tribuna verdikləri qarşısında "Rauf Arifoğlunun əleyhinə nəsə de" öhdəliyini qoyursa, əsas hədəfini *(hakimiyyətə gəlməyin başını buraxaraq)* Arifoğlunu zəiflətmək eqosu ilə məhdudlaşdırırsa, o zaman adamın bizimlə alıb-verə bilmədiyi nədir? - əsas da bu məqamı dərk etməkdə çətinlik çəkirəm. Ciddən. O ki qala Ramiz Mehdiyevə...məncə, Ramiz müəllimin Eldar Sabiroğlu monoloquna münasibətdə susqunluğu belə özündə bəlli bir cavabı ehtiva edir. Təxminən "Ay uşaq, get o yanda oyna" kimi bir formatda. Zatən Mehdiyev kimi təcrübəli, səbrli insan hər yoldan keçənin cavabını versəydi, Mehdiyev olmazdı.

**Dahi Tolstoy isə eynən məhz bu cür məqamları nəzərdə tutan əsrarəngiz bir ifadə işlədib: "Bəzən qapazın tam ətrafında fırlanarsan. Sağa-sola. Vurulub qəhrəman olmaq istərsən. Amma bu qapazı belə sənə çox görərlər. Layiq olmadığın üçün".** Odur ki, Eldar Sabiroğlu! İnsanlar



haqda bu qədər hədyan, iftira söyləyəcəyinə, o bəyənmədiyin və 35 yaşında vətən təəssübkeşliyi yadına düşən "yurist" oğlunu da al yanına, millətə fayda ver. Hətta arada boş zamanın olarsa keçmişi də yadına sal. Məsələn, Ramiz Mehdiyevin qəbuluna sanki pir qapısına gedirmiş kimi qabaq - qabağa girib dal-dala çıxdığın vaxtları da...

Deyirsən, Arifoğlundan fərqli olaraq dəyişməmişəm, yerimdəyəm, həminki adamam. Cümlənin ikinci hissəsi ilə mən tam razı. Dəyişməmisən. Amma köndələn durmusan axı, barı bunu etiraf elə.

Variant yoxdur! Siyasət meydanında kəllə-mayallaq dayanıb düz danışmaq luksu...- bu da yoxdur, mümkün deyil! Hələ -hələ müvəqqəti məskunlaşdığın meydan şeytana papışı tərs geyindirən Əli Kərimlinin nəzarətində ola - bu heç mümkün deyil!

Ramiz Mehdiyev mövzusu gerçəkdən əla mövzudur. "Raskrutka" üçün. Zatən həyatı və həyatın boyu sənə xeyirxahlıqdan savayı heç nə etməyən və üstəlik, bir çox şeyi borclu olduğun insanı, yəni Ramiz Mehdiyevi yaxşı tanıdığından onun bütün mərhələlərdə sərgiləyə biləcəyi reaksiyalara da gözəl bələdsən. Və əminsən ki, elan etdiyin müharibə sənə ziyan və zərər yetirməz. Mehdiyev yüz il qala sənə əl sürməz, acıq çıxmaz, bunu sənin şəxsiyyətinə yaraşdırsa da öz şəxsiyyətinə yaraşdırmaz. Bax ona görə gün-gündən xoşallanırsan, müştəbehləşirsən, bir könüldən min könülə Eldar Sabiroğluna vurulursan...

İnsan 60 yaşında mövqe dəyişirsə, bu artıq qüsurdur, Eldar Sabiroğlu! İnsan yalnız vəzifəsini itirincə, pulsuzlaşınca, ona-buna iş yükləyə bilməyincə, həyatda öz köhnə komfortunu bulamayınca azğınlaşırsa, bəsirət gözünü açma isterikasına girirsə, bu artıq nankorluqdur, Eldar Sabiroğlu! Evinin kandarındakı güzgünün təyinatı nədir, bilmirəm. Arzun, məqsədin, məramın nədir - onu da bilmirəm. Amma lütfən cəmiyyət - filan qalsın bir yana, elə yalnız bloka çıxarkən o güzgüyə hər dəfə diqqətlə bax. Mütləq bax. Və Allah xətrinə, sinədən yuxarı deyil, bütöv bax. Ki, gövdə ilə baş arasındakı ahəngi, proporsiyanı aydınca sezə biləsən...

***

***P.S.*** *Guya yazının formatını elə düzənləyəcəkdim ki, söhbəti Eldar Sabiroğlu ilə başlayıb, İŞİD vurğunu İnqilab Kərimovla bitirim. Olmadı. Araya heç cür körpü atammadım. Haqq kəsənlə baş kəsəni bir arada çözəmmədim. Həm, sonradan düşündüm: İnqilab haqda guya nə yazıb, nə təftiş edəcəkdim ki? Adamın elə ancaq adına sorğusuz-sualsız 7 il iş düşür...*



# Nardaranda dindarlar nəzarətə götürülür

## Ötən il həbs olunanlardan hələ də xəbər yoxdur; qəsəbədə yeni dini icmanın yaradılmasına başlanıb...

**Nardaran hələ də Daxili Qoşunların və polisin nəzarətindədir. Artıq 46 gündür ki, qəsəbəyə kənar şəxslərin girişi qadağandır. Postlardan yalnız şəxsiyyət vəsiqəsini təqdim etməklə keçmək mümkündür.**

Son məlumatlara görə, Nardaranda inşa edilmiş Sabunçu Rayon Polis İdarəsinin 42-ci Polis Bölməsi tərəfindən bir neçə əməliyyat keçirilib. Sonuncu əməliyyatların birində Abşeron küçəsi, ev 24-də yaşayan 1985-ci il təvəllüdlü Vilayət Əminağa oğlu Babayevin evindən 305 qram narkotik maddə və 18 ədəd əleyhiqaz tapıldığı bildirilir.

Ötən il noyabrın 26-da Nardaranda polislə dindarlar arasında baş verən silahlı qarşıdurmadan sonra keçirilən aksiyalarda fəallıq göstərdikləri üçün həbs olunanlardan hələ də xəbər yoxdur. Bu barədə rəsmi qurumlar nədənsə məlumat vermir.

İki aya yaxındır Daxili Qoşunların nəzarətində olan Nardarandakı durumla bağlı mətbuata açıqlama verən yeganə şəxs Nardaran Ağsaqqallar Şurasının sədri Natiq Kərimov idi. O isə yanvarın 6-da Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) keçirdiyi əməliyyat zamanı həbs edilib. Dövlətə xəyanətdə ittiham olunan N.Kərimov barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilib. O, hazırda DTX-nin təcridxanasında saxlanılır. N.Kərimovun oğlu Kamran Kərimov atası ilə görüşə bilmədiklərini, yalnız vəkil vasitəsilə ondan xəbər tutduqlarını bildirdi.

Hazırda Nardaranda təmir-tikinti işləri davam edir. Qəsəbəyə aparan yollar genişləndirilir, yol kənarları hasara alınır. "Azəryolservis" ASC-dən müsavat.com-a verilən məlumata görə, qəsəbənin Abşeron küçəsində avtomobil yolunun genişləndirilməsi işləri davam etdirilir.

Nardaranla bağlı gələn son xəbər isə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdulla və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının yanvarın 13-də Nardaranda dindarlarla görüşü barədədir.

Qəsəbənin "Rəhimə xanım" ziyarətgahında baş tutan görüşdə Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev də iştirak edib. Görüşdə qəsəbədəki məscidlərdə dini fəaliyyətin təşkili və dini icmanın yaradılması istiqamətində məsələlər müzakirə olunub.

Nardarandakı məscidlərin sərbəst şəkildə fəaliyyət göstərdiyi və Qafqaz Müsəlmanları İdarəsinə bağlı olmadığı məlum idi. Qəsəbədəki məscidlərə axund və imamlar kənd ağsaqqalları tərəfindən müəyyən edilirdi. Nardaran hadisələrindən sonra bütün məscidlərin nəzarətə götürüləcəyi anonsu verilmişdi.

Sonuncu görüşdə bu məsələyə diqqət çəkilib və bildirilib ki, ölkənin bütün bölgələrindəki kimi, Nardarandakı məscidlər də qanun çərçivəsində fəaliyyət göstərməlidir. Görüşdə bunun üçün qəsəbədə dini icmanın yaradılmasına və məscidlərin fəaliyyətinə, eləcə də dini maarifçilik işinin aparılmasına hər cür kömək göstəriləcək.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən musavat.com-a verilən məlumata görə, Nardarandakı məscidlərin qanun çərçivəsində fəaliyyət göstərməsinə tərəfdar olduqlarını deyən qəsəbədəki Cümə məscidinin axundu, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının üzvü Musa Qasımov və digər ağsaqqallar bu məqsədlə əllərindən gələn köməyi əsirgəməyəcəklərini bildiriblər.

Onlar qeyd ediblər ki, dini icmanın yaradılması işinə artıq başlanılıb. Görüşdə dini icmanın yaradılması prosesinin qısa vaxtda başa çatdırılması, dövlət qeydiyyatına alınması üçün zəruri sənədlərin Qafqaz Müsəlmanları İdarəsi vasitəsilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə təqdim olunması və növbəti mərhələdə icma üzvləri ilə görüş keçirilməsi qərara alınıb.

Qeyd edək ki, görüşün baş tutduğu "Rəhimə xanım" ziyarətgahının axundu Hacı Nuhbala Rəhimov da ötən il, dekabrın 9-da həbs edilmişdi. Ona 30 sutka həbs cəzası verilmişdi.

**❑ İlkin MURADOV**



# ASAN-xidmət harda ölüb?

Zamin HACI
zaminhaci@gmail.com

**Öncə "xaricdən maliyyələşənləri" - jurnalistləri, müxalifətçiləri, ictimai fəalları, QHT sektorunda çalışanları tuturdular. Daha sonra "daxildən maliyyələşənləri" - generalları, bankirləri tutdular. İndi isə sıra heç bir yerdən maliyyələşməyənlərə çatmışdır.**

Rayonlarda etiraz aksiyalarına çıxanların az-maz videolarına diqqət elədim. Demək olar hamısı qara geyimli, çox yoxsul görkəmli, bəziləri imkansızlıqdan dişi tökülmüş insanlar idi. Yeri gəlmişkən, bəzən qlamur gənclərimiz insanlarımızın qara geyinməsini tənqid edir. Doğrudan da bu, estetik baxımdan çox pis görünür, insanı qaramat basır. Ancaq onlar bunu keflərindən edirmi? Qətiyyən. Azərbaycan insanının al-əlvan geyinmək üçün şəraiti yoxdur. Qara geyimin həm çirklənməsi gec bilinir, həm də kütlədən fərqli görünüb diqqət mərkəzinə düşmürsən.

Bax, həmin qara geyimli, orta yaşlı kişilərin indi işsiz qalıb küçələrə çıxmasının əsas səbəbi neft gəlirlərinin azalmasıdır. Cəmi bir-iki il qabaq onlar hərəsi pis-yaxşı bir idarədə, əsasən də tikinti və xidmət sektorunda işləyirdilər. Ora-bura yamaq vururdular, üzlük çəkirdilər, hasar tikirdilər, qətiyyən "siyasətə qarışmırdılar". Heç vaxt yadımdan çıxmır, bir neçə il qabaq gənclər Bakının mərkəzində "Əsgər ölümlərinə son" aksiyası keçirirdilər. Polis insanları qovurdu, gənclər ara küçələrə dağılmışdılar və o küçələrin birində yuxarı qatda təmirlə məşğul olan fəhlələr polisin sıxışdırdığı gəncləri... daşa basmışdılar. Mən rayonlardan son aksiyalardakı etiraz edən kütlənin içində xeyli bu fəhlə obrazlarından gördüm.

Yaxşı olar ki, iqtidar onsuz da yeyilmiş, neftlə yağlanmayan və cırıldayan "qaykaları, boltları" sıxmaqdan əl çəksin. İlk növbədə, siyasi amnistiya elan etmək, birinci həbs dalğasında tutulan həmin "xaricdən maliyyələşən qara qüvvələri" azadlığa buraxmaq lazımdır. O adamlar hamısı ölkənin yaxşılığını istəyən, yüksək intellektli, çağdaş dünyagörüşlü şəxsiyyətlərdir. Onların azadlığa buraxılması bu ağır günlərdə iqtidarın özünə daha çox lazımdır. Həm də siyasi məsuliyyəti bölüşmək, böhrandan birgə çıxış yolları aramaq üçün siyasi, ictimai dialoq önəmlidir. Əgər yenə Cəbrayılın icra başçısı, insanları söyüb-təhqir edən Mahmud kimi tiplərlə yola davam etmək fikrindəsinizsə, başqa sözüm yox. Davam edin, xeyir taparsınız, tapanda bizimlə də bölüşərsiniz.

İkinci növbədə elə bankirləri də buraxmaq lazımdır. Guya Cahangir Hacıyevin suçu başqa bankirlərin suçundan çox idimi? Guya təkbaşına, şəxsi qərarlarını icra eləmişdimi? Həbs etmək üçün həmişə vaxt var, imkan yaratmaq lazımdır adamlar işləsinlər, borclarını qaytarsınlar. Maliyyə amnistiyasını özünüz özünüzə də elan edin ki, gələcək üçün bir növ "presedent hüququ" yaransın.

Ancaq bunlar, əlbəttə, mənim qeyri-ciddi təkliflərimdir. Ciddi olaraq ürəyimdən keçir ki, kaş yenə Avropa Oyunlarını düzəldək. Yoxsa heç bilinmir bu oyunlar bir də olacaqmı. O bunun üstünə atdı, bu onun, oyunlar qaldı ortalıqda. Bəs axı biz belə danışmamışdıq... Tarix boyunca millətlər "Bu oyunların birincisi Bakıda olmuşdur" deyərək bizi xatırlamalı idilər. Azərbaycan dünyada məşhur olmuşdu, Ledi Qaqa "Əzizbəyov kruqu"ndan yığışmırdı. Hələ Avroviziya yarışması... Ay millət, bu nə etibarsızlıqdır? Dünən baxıram, ürəyim qana dönür, görürəm bir neçə manıs saytlarda ağlaşma qurmuşdur, deyirlər toy yoxdur, kasıbçılıqdır. Belə olarmı? Bizim hal-hazırda Avroviziyaya hazırlaşan vaxtımızdır. Seçim turları olmalıdır, müğənnilərə səs verməliyik, mesaj göndərməliyik. Böhran müvəqqəti çətinlikdir, insan gərək həyatdakı əsas məqsədindən, prinsiplərindən əl çəkməsin. Qoy millətdə ruh yaşasın, şair demişkən!

Bir də əlaqədar təşkilatlardan xahiş edərdik ASAN-Xidmətin səyyar avtobusunu Siyəzənə göndərsinlər. Orda, deyəsən, xeyli adamın sənəd problemi vardır.



# Putin Əsədi neçəyə satacaq? - qiymət Qarabağa da təsir edəcək

## Barak Obamanın Rusiya prezidentinə qəfil zənginin pərdəarxası; Kreml başçısının iflas mesajları arxasında daha nələr durur? Bu il kartlar açıla bilər, Azərbaycan da hazır olmalıdır...

**2016-cı il Rusiya üçün əvvəlkindən ağır başlayıb. Rusiya iqtisadiyyatında tənəzzül prosesləri dərinləşməkdə, rubl aybaay daha çox dəyər itirib yeni antirekordlar müəyyən etməkdədir. Rusiyalı və əcnəbi müstəqil ekspertlərin təzə illə bağlı verdiyi bəd proqnozlar beləcə, yüzdə yüz özünü doğrultmaqdadır.**

Deyəsən, Rusiya rəhbərliyi də situasiyanın fərqindədir. Əks halda, baş nazir Dmitri Medvedyev srağagün xalqa çağırış edərək ən pis variantlara hazır olmağın vacibliyini bəyan eləməz, həmin gündəcə prezident Vladimir Putin ilk dəfə olaraq rusiyalılara iqtisadi böhran xəbərdarlığı etməzdi. Bu, özlüyündə çox şeyi deyir və ölkədəki durumun həqiqətən "rusca" olmasından xəbər verir.

Məlumatlara görə, Nazirlər Komitəsinin üzvləri ilə təcili görüşdə Rusiya lideri hökuməti iqtisadiyyatdakı vəziyyəti izləməyə və hadisələrin istənilən inkişaf variantına hazır olmağa çağırıb. "Biz situasiyanın istənilən inkişaf variantına hazır olmalıyıq", - deyə o qeyd edib.

***

Bu açıqlamalar Putinin Almaniyanın "Bild" nəşrinə verdiyi və rezonans doğuran son müsahibəsi kontekstində bir qədər də aktuallıq qazanıb. Xüsusilə də onun Suriya diktatoru Bəşər Əsədlə bağlı söylədiyi fikirlərin arxasında ciddi siyasi mesajlar gizləndiyini düşünən təhlilçilər var. Məsələn, politoloq Qabil Hüseynli bu qənaətdədir.

Yada salaq ki, Putin Rusiyanın Əsədə sığınacaq verməyə hazır olduğunu bildirib və bu işin Moskva üçün ABŞ-ın keçmiş kəşfiyyatçısı Eduard Snoudenə siyasi sığınacaq verilməsindən də asan olacağını söyləyib. Eyni zamanda Rusiya dövlət başçısı Əsədin Suriya məsələsində böyük səhvlərə yol verdiyini də ilk dəfə olaraq açıq şəkildə bildirib.

**"Görünür, Moskva Suriyadakı prosesləri istədiyi səmtə yönəldə bilməyəcəyinin fərqinə varıb". Qabil Hüseynli bu qənaətdədir (axar.az). Sabiq dövlət müşaviri sözügedən müsahibəni həmçinin Kremlin bəzi siyasi qərarlarının anonsu kimi qiymətləndirir:** "Bəşər Əsədi Suriyadakı müxalifətlə bir araya gətirmək, bu yolda anlaşmaya nail olmaq və ən son variantda prezident seçkiləri keçirməyi öz siyasi təcrübə sınağından keçirən Putinin böyük planı iflasa uğrayır. Rusiya indi İŞİD-ə qarşı elə də ciddi mübarizə aparmır, əsas güclər türkmanlara və Azad Suriya Ordusuna qarşı yönəldilib. Putin burda da öz məqsədinə nail ola bilməyib. Çünki böyük oyunun reallaşması milyonlardan asılı idi. Bundan əlavə, 2016-cı il Rusiya üçün uğurlu başlamayıb. İnflyasiya sürətlənir, rubl çökməkdə davam edir, iqtisadi göstəricilər həddindən artıq pisdir. Belə olan halda Rusiya Əsədin arxasında sona qədər dayana bilməz. Buna görə də Kreml kartları dəyişir və Əsədə sığınacaq verilməsini gündəmə gətirir. Ancaq bu, Rusiyaya baha başa gələ bilər".

**Ekspert hesab edir ki, əməllərinə görə Əsədin hüquqi məsuliyyətə cəlbi vaxtilə onu müdafiə edən Moskvaya Serbiyanın taleyini yaşada bilər:** "Əsədin taleyi çox dumanlıdır. O, nəinki prezident seçkilərində iştirak edəcək, Haaqa məhkəməsi qarşısında cavab verməli olacaq. Elə bir zaman yetişəcək ki, heç Kreml də onu qoruya bilməyəcək. Əsədin hüquqi məsuliyyətə cəlbi vaxtilə onu müdafiə edən Moskvaya Serbiyanın taleyini yaşada bilər. Bunun üçün Serbiyanın qaniçən prezidenti Miloşeviç və onun əlaltılarının başına gələnləri xatırlamaq kifayətdir. Hətta iş o yerə çata bilər ki, məhkəmə qiyabi qərar çıxara və Rusiyadan bunun icrasını tələb edə bilər".

**Politoloqun qənaətincə, Səudiyyənin son addımlarından dolayı da Moskva təlaş içindədir:** "Amerika özünün anti-İŞİD koalisiyasını Səudiyyənin islam ittifaqı ilə koordinasiya etdikdən sonra Moskvanın Suriyada fəal hərəkəti məhdudlaşacaq. Əsədin və eləcə də rusların Suriyadakı işi ağırlaşacaq. Bir sözlə, Putin dünyaya Suriya siyasəti və Əsədlə bağlı çox önəmli mesajlar verib. Bu, Moskvanın Əsəddən imtina etməsi kimi də qiymətləndirilə bilər".

***

Maraqlıdır ki, müsahibədən az sonra ABŞ prezidenti Barak Obama 6 aylıq fasilədən sonra daim məsafə saxladığı Rusiya prezidentinə zəng edib. Telefon danışığı zamanı ölkə başçıları Ukrayna münaqişəsi, Suriya böhran və Koreya yarımadasındakı situasiyanı müzakirə ediblər. Putin rəsmi Kiyevin Minsk razılaşmalarına əməl etməsini, Suriya ilə bağlı yanvarın 25-də Cenevrədə keçiriləcək beynəlxalq konfransa qədər terror təşkilatlarının yekun siyahısının hazırlanmasını təklif edib. İki dövlət başçısı həmçinin İran və Səudiyyə Ərəbistanı arasında yaranmış gərginliyin tezliklə aradan qaldırılması barədə fikir mübadiləsi aparıb.

Ancaq şübhə yoxdur ki, danışıqlarda Suriya, Bəşər Əsəd mövzusu mərkəzdə olub. Obamanın zənginin də bu xüsusda Amerika üçün uğurla, Rusiya üçünsə Putinin son böhran açıqlamalarından da göründüyü kimi, əlverişsiz vəziyyətə təsadüf etdiyini əminliklə söyləmək olar.



Əslində Bəşər Əsədlə bağlı Putinin söylədikləri həm də Amerika və Qərblə siyasi bazarlığın mümkünlüyü haqda bir mesajdır. Rusiya tarix boyu dəfələrlə sübut edib ki, onun üçün müqəddəs heç bir şəxs, dəyər yoxdur. Bu üzdən Qərblə Əsəd bazarlığı Kremlin Suriyadan rüsvayçı şəkildə çıxmasını önləməyə hesablanmış ssenari də ola bilər.

Belə mümkün bazarlıqlar haqda öncələr yazmışıq. Qeyd eləmişik ki, Rusiya Suriyada Bəşər Əsəd vasitəsilə güclü kart-blanş əldə edərsə, bundan başqa münaqişəli zonalarda, o cümlədən Ukraynada, Güney Qafqazda, Dağlıq Qarabağ konflikti zonasında istifadə eləməyə çalışacaq. Əks halda, Əsədi satıb yenə qarşılığında sözügedən bölgələrdə dominant status əldə eləməyə səy göstərəcək.

Putinin "Əsədin Suriya məsələsində böyük səhvlərə yol verdiyini" söyləməsi gələcək bazarlığın ilk təzahürü sayıla bilər. Demək, Qarabağ məsələsinə də Əsədin neçəyə satılacağı bu və ya başqa şəkildə təsirsiz ötüşməyəcək. Hər necə olmasa, Moskvanın Suriya məsələsində ciddi güzəşti başqa münaqişəli bölgələrdə *(Donbas, Dağlıq Qarabağ, Gürcüstan)* dominant status əldə olunması, hətta sanksiya rejiminin yumşaldılması naminə etməyə çalışacağı şübhə doğurmur. Bu il kartlar açıla bilər. Odur ki, Azərbaycan da hazır olmalıdır.

**❑ Siyasət şöbəsi**

# Azərbaycanı qaz bazarında kim sıxışdırır - Rusiya, Qərb, yoxsa hər ikisi?

**Rəsmi Tiflisin Azərbaycan qazını Rusiyanın "Qazprom" qazına dəyişmək istəyi Bakını hərəkətə keçməyə və qonşu ölkə ilə intensiv danışıqlar aparmağa sövq edib. Ancaq SOCAR rəhbəri Rövnəq Abdullayevin Tiflisə son səfəri və gürcü tərəfi ilə apardığı danışıqlar da ciddi bir nəticə verməyib.**




İki gün əvvəl qaz məsələsini müzakirə etmək üçün SOCAR rəhbərliyi və Gürcüstanın hökumət rəhbərləri Tiflisdə görüşüblər. Görüşdə Gürcüstanın qış mövsümündə təbii qaza artan tələbatının tam ödənilməsi üçün mövcud qaz kəmərlərinin texniki vəziyyəti və nəqlin artırılması imkanları ilə bağlı məsələlər müzakirə olunub.

Görüşdə Azərbaycan tərəfini SOCAR prezidenti Rövnəq Abdullayev, "SOCAR Georgia"nın baş direktoru Mahir Məmmədov, Gürcüstan tərəfini baş nazir Georgi Kvirikaşvili və Kaxa Kaladze təmsil edib.

Gürcüstan hazırda özünü üç mənbədən qazla təmin edir. Rəsmi Tiflis gün ərzində SOCAR-dan 6 milyon, "Şahdəniz 1"dən təxminən 3 milyon kubmetr qaz alır. "Şahdəniz 1"dən qaz Bakı-Tiflis-Ərzurum boru kəməri ilə nəql edilir.

Gürcüstan Rusiyadan isə 2-2,5 milyon kubmetr qaz idxal edir. "Qazprom" Gürcüstana 2014-cü ildə 300 milyon kubmetr qaz satıb. Rusiya Ermənistana ötürdüyü qazın tranzit haqqının əvəzində Gürcüstana "mavi yanacaq" satır.

Qonşu ölkənin energetika naziri Kaxa Kaladze iddia edir ki, SOCAR Gürcüstanı yetəri qədər qazla təmin edə bilmir. Gürcü tərəfinin Rusiya ilə İsveçrədə separat qaz danışıqlarına getməsi hətta Gürcüstan müxalifətinin də sərt etirazına səbəb olub. Keçmiş prezident Mixail Saakaşvilinin partiyası Gürcüstan hökumətini Rusiyanın "Qazprom" şirkəti ilə qaz müqaviləsi bağlandığını elan etməyə çağırıb. "Vahid milli hərəkat" partiyasının üzvləri bildiriblər ki, bu müqavilə Azərbaycanla energetika sahəsində əməkdaşlığa xələl gətirəcək. Azərbaycan tərəfi bir neçə il ərzində stabil olaraq Gürcüstanın enerji bazarını qazla təmin edir. Hətta bir neçə dəfə istənilən miqdarda qaz nəql etməyə hazır olduğunu bildirib. Etirazçılar həmçinin "Qazprom"dan asılı olduqları illəri xatırlayıblar.

**"Biz Gürcüstan hakimiyyəti qarşısında bütün öhdəliklərimizi yerinə yetiririk"-deyə SOCAR prezidenti Gürcüstanın "Rustavi 2" televiziyasına müsahibəsində deyib. R.Abdullayev bildirib ki, Gürcüstanın baş naziri Georgi Kvirikaşvili və digər hökumət nümayəndələri ilə danışıqlar yaxşı keçib.** "Gürcüstan hakimiyyətinə qəbul üçün təşəkkür edirəm. Bütün çətinliklərə baxmayaraq, biz neft və qaz qiymətlərində öhdəliyi yerinə yetiririk. Texniki problemləri isə birlikdə həll etməyə çalışacağıq", - deyə SOCAR rəhbəri bildirib.



**Qubad İbadoğlu:**
"Gürcüstanın qərarı enerji resurslarına olan təminatını şaxələndirməklə, bazarda SOCAR-ın hökmranlığına son qoymağa yönəlib"



**İlham Şaban:**
"SOCAR Gürcüstanın Kaxetiya bölgəsindəki köhnə neft yatağında yeraltı qaz anbarı tikmək təklifi ilə çıxış edib"

**ANS-in məlumatına görə, "SOCAR Georgia" şirkətinin baş direktoru Mahir Məmmədov isə bildirib ki, Azərbaycan Gürcüstana nəql etdiyi gündəlik təbii qazın həcmini 6 mln. kubmetrdən 7 mln. kubmetrə qədər artıracaq. Onun sözlərinə görə, görüşdə əsasən müzakirə mövzularından biri qaza tələbatın pik dövründə texniki imkanların yaxşılaşdırılması idi.** "Bu, yeni baş nazir Georgi Kvirikaşvili səviyyəsində ilk görüş idi. Biz bilirik ki, qış mövsümündə qaz istehlakı böyüyür. Əsas müzakirə etdiyimiz məsələ isə yaranan defisiti texniki yollarla necə doldurmaqdır. Biz razılaşdıq ki, ekspertlərimiz bu istiqamətdə birgə işləyəcəklər", - deyə Mahir Məmmədov bildirib.

Faktiki olaraq Gürcüstan-Azərbaycan razılaşması baş tutmayıb və bu da neft gəlirlərindən məhrum olan ölkəmiz üçün qaz satışından əldə olunacaq gəlirləri də itirmək riski yaradır. Ortaya müxtəlif suallar çıxır, Gürcüstan niyə Rusiyaya meyl edir? Tiflisin bu addımları Azərbaycanın təsir dairəsindən çıxmaq üçündür, ya ortada başqa səbəb var?

Bəzi müşahidəçilər hesab edir ki, Qərbə inteqrasiya xətti tutmuş Tiflisin bu addımları ilə ABŞ-ın Azərbaycana qarşı siyasəti arasında da əlaqə var. Hesab olunur ki, ABŞ-dan Azərbaycana qarşı sanksiya hədələrinin intensivləşdiyi bir məqamda Gürcüstanın Azərbaycan qazından müxtəlif bəhanələrlə imtina etməsi elə de-fakto sanksiya anlamını verir. Bu mənada Azərbaycana qarşı gürcü gedişinin arxasında Qərbin dayandığı ehtimalı da var. Onu da qeyd edək ki, ARDNŞ ilə Yunanıstanın DESFA qazpaylayıcı şirkəti arasında əldə olunan ilkin razılaşma da yarımçıq qalıb. Üstəlik, dövriyyəyə "Qazprom" da girib. Beləliklə, Qərb dairələri və Rusiya arasında soyuq küləklər əssə də, onların maraqları Azərbaycan məsələsində üst-üstə düşür. Faktiki olaraq Azərbaycanın qaz bazarından sıxışdırılması prosesi gedir.

**İqtisadçı ekspert, ABŞ-ın Dyuk Universitetinin professoru Qubad İbadoğlu "Yeni Müsavat"a mövcud durumu şərh edərkən bunları bildirdi:** "Gürcüstanın qərarı enerji resurslarına olan təminatını diversifikasiya etməklə, yeni şaxələndirməklə bazarda SOCAR-ın hökmranlığına son qoymağa yönəlib. Xatırlayırsınızsa, bu hökumət yenicə formalaşanda da SOCAR-la bağlı araşdırmalara başladı və qiymətin endirilminə nail oldu. Burda bir neçə məqam diqqəti cəlb edə bilər. Təbii ki, ən başlıcası siyasidir". **Q.İbadoğlunun sözlərinə görə, hazırkı hökumətdə Rusiya və İranla əməkdaşlığa meylli, Azərbaycana qarşı qüvvələr fəallaşıb:** "Ola bilər ki, bu, həm də Saakaşviliyə olan münasibətdən qaynaqlanır. Çünki SOCAR-a geniş fəaliyyət imkanlarının yaradılması onun adı ilə bağlanır".

**ABŞ-ın bu məsələyə münasibətinə gəlincə, iqtisadçı alim hesab etmir ki, Tiflisin bu məsələyə dair siyasəti oradan idarə olunur və bu, Azərbaycana münasibətlə bağlıdır:** "ABŞ Azərbaycanın enerji resurslarının Gürcüstan, Türkiyə və Avropa satılmasını birmənalı şəkildə dəstəkləyir. Odur ki, burda günahı Gürcüstanın hazırkı hakimiyyətində axtarmaq düzgün olardı".

**Neft mütəxəssisi İlham Şaban isə bu barədə danışarkən dedi ki, əslində SOCAR-ın Gürcüstan bazarında rolu ilə bağlı mövcud olan ajiotaja ötən ilin sentyabrında nöqtə qoyulmuşdu:** "Azərbaycan 2015-ci ilin nəticələrinə görə Gürcüstan bazarında 87%-ə söz sahibi olub. 2016-2018-ci illərdə bu rəqəm 2-3% azala bilər. Bunun əvəzinə Gürcüstan özünün artan tələbatını Rusiya qazı ilə ödəyə bilər. Ancaq 2019-cu ildən Azərbaycan "Şahdəniz-2" qazının hesabına yenidən Gürcüstan bazarında mövqelərini bərkitməyə başlayacaq və hətta 90%-dək artıra biləcək". **İ.Şaban qeyd etdi ki, SOCAR da öz tərəfindən təkliflə çıxış edib:** "Gürcüstan bazarında mövqelərini möhkəmlətmək, bazara qazın orta perspektivdə stabil verilməsini təmin etmək üçün SOCAR Gürcüstanın Kaxetiya bölgəsindəki köhnə neft yatağında yeraltı qaz anbarı tikmək təklifi ilə çıxış edib və bu ideya Gürcüstan hökuməti tərəfindən rəğbətlə qarşılanıb. Bu ideya gerçəkləşdiyi təqdirdə, artıq qonşu dövlətin bazarının uzunmüddətli dövr üçün SOCAR-ın əlində olacağı şübhə doğurmur. Bu isə əldə olan qaz bazarlarının qorunması yönümündə çox yaxşı atılmış addım kimi qiymətləndirilə bilər. Nəzərə alsaq ki, Gürcüstan bazarına Rusiya və İran kimi qaz ölkələrinin də nəzəri dikilmişdi, gələcək üçün 2,5-3 milyardlıq bir perspektiv regional bazarda üstün imkanlara malik olmaq biznes üçün çox yaxşı imkandır".

❑ **Cavid TURAN**




# Hökumət büdcəni dəyişir: neft 30 dollardan götürüləcək

**Neftinin qiymətinin getdikcə ucuzlaşması ilə əlaqədar dövlət büdcəsinə yenidən baxılacaq. İlkin məlumatlara görə, Azərbaycanın 2016-cı il büdcəsi cari ilin may-iyun ayında müzakirəyə çıxarılacaq. Millət Məclisin deputatı Vahid Əhmədov azvision.az-a açıqlamasında bildirib ki, büdcəyə edilən dəyişiklikdə neftin qiyməti 30 dollardan götürülə bilər:**

"Büdcədə neftin qiyməti ilə bağı müxtəlif fikirlər səsləndirilir. Bir çoxları neftin qiymətinin ilin ikinci yarısında artacağını, digəri isə əksinə, daha da ucuzlaşacağını deyir. İndiki reallığı nəzərə alsaq, hesab edirəm ki, büdcədə neftin qiyməti 1 barel üçün 30 dollar səviyyəsində götürülməlidir. Qiymət dəyişərsə, büdcəyə yenidən baxmaq olar".

**Büdcədə hansı xərclərin azaldılacağına gəlincə, V.Əhmədov vurğulayıb ki, ölkə başçısının göstərişi ilə sosial xərclər dəyişməyəcək:** "Tikinti və digər sahələrlə bağlı xərclər müəyyən müddətə dayandırıla bilər. Bu barədə dövlət büdcəsi təqdim olunanda bilinəcək. Büdcəni müzakirə edəndə Maliyyə Nazirliyi bəyan etdi ki, neftin qiymətinin dəyişməsi ilə bağlı bir neçə variant hazırlanıb, onların hər birinə baxılacaq və qərar qəbul ediləcək".

Qeyd edək ki, ötən il dekabrın 8-də prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi təsdiqlənib. 2016-cı il dövlət büdcəsinin gəlirləri 14 566 000,0 min manat, xərcləri 16 264 000,0 min manat *(o cümlədən mərkəzləşdirilmiş gəlirləri 13 799 654,5 min manat, yerli gəlirləri 766 345,5 min manat, mərkəzləşdirilmiş xərcləri 14 722 749,0 min manat, yerli xərcləri 1 541 251,0 min manat)* məbləğində nəzərdə tutulub.

Dövlət büdcəsində neftin 1 barel üçün qiyməti 50 dollar götürülsə də, "qara qızıl"ın qiyməti getdikcə aşağı düşür. Hazırda neftin qiyməti 30 dollara yaxındır. Ekspertlər neftin daha da ucuzlaşacağını deyirlər.

# Azərbaycan iqtisadiyyatına kapital qoyuluşları xeyli azalıb

**2015-ci ildə Azərbaycan iqtisadiyyatına kapital qoyuluşları 15 mlrd. 957 mln. manat təşkil edib. Bu barədə "İnterfaks-Azərbaycan" agentliyinə Dövlət Statistika Komitəsindən məlumat verilib. Xəbər verildiyi kimi, 2014-cü ilin yekunları üzrə Azərbaycanda əsas kapitala investisiya qoyuluşları 17 mlrd. 615,8 mln. manat təşkil edib. Beləliklə, 2015-ci ildə kapital qoyuluşlarının həcmi 9,4% azalıb.**

DSK-nın məlumatına görə, kapital qoyuluşlarının ümumi həcmindən 9 mlrd. 877,4 mln. manat (bütün investisiyaların 61,9%-i) istehsalat təyinatlı obyektlərin, 5 mlrd. 42,4 mln. manat (bütün investisiyaların 31,6%-i) xidmət obyektlərinin inşasına, 1 mlrd. 37,2 mln. manat (bütün investisiyaların 6,5%-i) 1 mln. 927,2 min kvadrat metrolan yaşayış evlərinin tikintisinə yönəldilib.

Hesabat ili ərzində 7 mlrd. 21,08 mln. manat (bütün investisiyaların 44%-i) xarici investisiyaların, 8 mlrd. 935,92 mln. manat (bütün investisiyaların 56%-i) daxili investisiyaların payına düşüb.

Hesabat dövründə tikinti-quraşdırma işlərinə kapital qoyuluşları 11 mlrd. 728,4 mln. manat və ya bütün kapital qoyuluşlarının 73,5%-ni təşkil edib.

YENİ MÜSAVAT
N 10 (6331) 15 yanvar 2016

## Sabiq nazir MR rəhbərinə qarşı necə oyun qurubmuş...

**Eldar Mahmudov milli təhlükəsizlik naziri vəzifəsindən çıxarılandan bir neçə gün sonra Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda atası Əhməd Mahmudovun adını daşıyan türk liseyinin önündəki abidəsinin sökülməsi əsl sensasiya kimi qarşılanmışdı. Əhməd Mahmudovun heykəli başına ip bağlanaraq, texnikanın gücü ilə yerlə bir edildi.**




# Eldar Mahmudovu bitirən daha bir səbəb-Vasif Talıbova qarşı oyun

### Şərurda keçmiş nazirin atasının heykəlinin uçurulması ilə 2013-cü il prezident seçkiləri ərəfəsi MTN-in keçirdiyi əməliyyat arasında nə əlaqə var? Naxçıvan Ali Məclis sədrinin yaxın qohumundan “tapılan” silahlar əslində MTN-in keçmiş rəhbərliyinin ixtiyarında olub; Eldar Mahmudov nəyə nail olmaq istəyirmiş və...

Xəbərlərə görə, liseyə hələ E.Mahmudov nazir olmamışdan atasının adı verilibmiş. 2008-2009-cu illərdə isə Eldar Mahmudov nazir kimi 4 milyon manat xərc qoyaraq liseyə yeni korpus belə tikdiribmiş. Nazirin istefasından cəmi bir neçə gün sonra baş vermiş bu hadisə mediada haqlı sual da yaratmışdı: Naxçıvan rəhbərliyi Eldar Mahmudova niyə bu qədər qəzəblidir? Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbov niyə Mahmudova bu cür gözdağı verdi?

Naxçıvan MTN-in rəisi Vəli Ələsgərovun işdən çıxarılmasından sonra E.Mahmudovla əlaqəsi olduğu iddia edilən digər generalların da həbsi ilə bağlı son günlər yayılmış məlumatlar iki iri ranqlı məmur arasındakı gərginliyin detallarını üzə çıxarır. Eldar Mahmudov, başda Vasif Talıbov olmaqla, Naxçıvanın bütün iri məmurlarını da dinləyib və onlarla bağlı kompromatlar toplayıb. Təbii ki, bu işdə cəzalandırılmış Vəli Ələsgərov ciddi rol oynayıb. O, mütəmadi olaraq Ali Məclis sədri, onun yaxınları, oğulları və digər yerli rəhbərlərlə bağlı dosyeləri E.Mahmudova ötürüb. Amma mənzərinin tam aydın olması üçün bütün fiqurları oyun taxtasına yığmaq lazım gəlir. Təsadüfi deyil ki, 2013-cü ilin avqustunda-prezident seçkiləri ərəfəsi Bakıdakı bir siyasi həbs də indi gündəmə gəlib.

Söhbət Azərbaycanın sabiq xarici iqtisadi əlaqələr naziri əvəzi işləmiş Nicat Quliyevin həbsindən gedir. Əslində “Yeni Müsavat” bu mövzuda elə həmin ərəfədə bir neçə sensasion yazı dərc edib, Vasif Talıbovun xalası oğlu olan N.Quliyevin həbsinin Ali Məclis sədrinə qarşı qurulmuş plan olduğu qeyd olunub.

***

2013-cü ilin avqustunda “siyasi hava” kifayət qədər gərgin idi. Rusiyada Azərbaycan hakimiyyətinə qarşı olduğunu gizlətməyən baş nazirin sabiq müavini Abbas Abbasovun rəhbərliyi ilə “Milyarderlər ittifaqı” deyilən qurum yaradılmışdı. Bakıda da müxalifət Abbas Abbasovun ən yaxın adamı, tanınmış kinorejissor Rüstəm İbrahimbəyovun rəhbərliyi ilə Milli Şurada toplanmışdı. Məhz bu ərəfədə MTN az qala Milli Şuranın “silahlı qanadı”kimi təqdim etməyə çalışdığı bir həbs həyata keçirdi. Uzun illərdir adı mediada unudulan sabiq xarici iqtisadi əlaqələr naziri əvəzi işləmiş N.Quliyevin həbsi əslində o vaxtın gərgin dövrü üçün təəccüblü deyildi. N.Quliyevin həbsindən öncə Milli Şura rəhbərliyi ilə görüşmək istəməsi barədə məlumatlar vardı və sonradan Rüstəm İbrahimbəyov onunla belə bir təmas olduğunu təsdiqləmişdi. R.İbrahimbəyov demişdi ki, N.Quliyev bir neçə dəfə ona zəng edib. “Ona görə də onun bağına silah, sursat, top-tüfəng atıb türməyə basdılar. Cəmi iki-üç zənginə görə. Özü də bu, siyasətlə bağlı zənglər deyildi. Biz çoxdan tanışıq, elə-belə hal-əhval soruşmaq üçün zəng etmişdi” deyə, R.İbrahimbəyov bildirmişdi.

Onun həbsinin Milli Şuraya qarşı istifadə ediləcəyi deyilsə də, iqtidar bu addıma getmədi. MTN-in rəsmi açıqlamasında bildirilirdi ki, N.Quliyev Cinayət Məcəlləsinin 228.1-ci (Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla) partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə , satma, saxlama, daşıma və ya gəzdirmə) maddəsində nəzərdə tutulan cinayəti törətməkdə şübhəli bilinir.

N.Quliyev saxlandıqdan dərhal sonra öz vəkili ilə təmin edilməsini və evə zəng etmək imkanının verilməsini tələb edib. Lakin onun tələblərinə məhəl qoyulmayıb. Bir neçə saat sonra ona bildiriblər ki, guya avtomobilindən tapança və 8 güllə müsadirə edilib. Saxlandıqdan sonra avtomobil onun nəzarətindən kənar MTN əməkdaşlarının sərəncamında olub. N.Quliyev ona qarşı irəli sürülmüş ittiham mətnindən öyrənib ki, onun bağında avtomat silah, əl qumbaraları və digər döyüş sursatları aşkar edilib. O, ittiham saxta olduğu üçün ifadə verməkdən imtina edib. Bununla belə, Səbayel Rayon Məhkəməsinə gətirilib və barəsində 2 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Amma əsil sensasiya N.Quliyevin Vasif Talıbovla qohum olması ilə üzə çıxdı. N.Quliyevin V.Talıbovla doğma xala oğlu olmasını onun vəkilləri jurnalistlərlə söhbətlərində təsdiqləmişdi də...

Dərhal bu həbsin qondarma və V.Talıbova qarşı planlaşdırıldığı versiyası ortaya çıxdı. N.Quliyevin həbsi V.Talıbovun zəiflədilməsi, Bakıdakı bəzi nazirlərə sayğısız münasibətinin cavabı kimi də izah edildirdi. Bildirilirdi ki, Ali Məclis sədri N. Quliyevin onun yaxın qohumu olduğunu bildikləri halda həbs edilərkən ailəsinə qarşı olan davranışından daha çox qəzəblənib. Belə ki, həbs edilərkən N. Quliyevə ailəsinə xəbərdarlıq etməyə imkan verilməyib. Xanımı (himnimizin müəllifi Əhməd Cavadın nəvəsidir) həyat yoldaşının evə qayıtmamasından və telefonuna zəng çatmamasından ciddi sarsıntı keçirib. Ailəsi bütün qohumlarına zəng edərək N.Quliyevi axtarıb. Yalnız “qaramaskalılar” Novxanıdakı bağ evinə hasardan düşdükdən və axtarış apardıqdan sonra onun həbs edildiyi məlum olub. Məlumatlarda bildirilirdi ki, həbslə bağlı V.Talıbov prezidentlə də görüşüb, N.Quliyevin “müxalifətlə əlaqəyə görə həbs edilməsinin” qondarma olduğunu deyib. Amma sonda N.Quliyevə 3 il həbs cəzası verilməsi onu göstərdi ki, o zaman E.Mahmudovun verdiyi dosyelərə daha çox inanılırmış.

Azadlıq.info yazır ki, Nicat Quliyevdən “tapdığı” silahlar əslində MTN-in keçmiş rəhbərliyinin ixtiyarında olub və müxtəlif “iş”lərdə istifadə olunub. Bu “iş”lər nəticəsində həbsdə olan, milyonlar verib “canını qurtaran”lar da var. Qeyd edək ki, V.Talıbovun qohumunun həbsində aktiv rol almış MTN-in Antiterror Mərkəzinin sabiq rəisi Elçin Quliyev hazırda həbsdədir, onun müavini İlqar Əliyev isə Kürdəxanı təcridxanasında müəmmalı şəkildə intihar edib.

Yada salaq ki, 2013 prezident seçkilərindən sonrakı dövrdə də V.Talıbovun tezliklə vəzifədən gedəcəyi ilə bağlı xəbərlər intensivləşmişdi. Bu xəbərlər V.Talıbovun mərkəzi hakimiyyətdə ən ciddi dəstəkçisi, MTN-in sabiq şefi ilə münasibətləri gərgin olan baş qoruman Bəylər Əyyubovun bacısı oğlunun da tutulması(hazırda azadlıqdadır-red.) fonunda xeyli inandırıcı göründürdü. Eldar Mahmudovun ifşasından sonra həyata keçirilən həbslərə isə məhz Bəylər Əyyubovun rəhbərlik etməsi, hətta bir müddət sabiq nazirin otağında oturaraq müvafiq göstərişlər verməsi, Naxçıvanda isə atasının heykəlinin uçurulması, muxtar respublikada ona bağlı generalların son həbsi bu mübarizənin hansı həddə olduğunu və Eldar Mahmudovun bu mübarizədə uduzduğunun sübutudur...

❑ **“Yeni Müsavat”**

# “Üns” teatrının həbsdəki redaktoru bəraət istəyir

### **Nəriman Abbasoğlu:** “Mənim həbsimə səbəb MTN Antiterror Mərkəzinin qeyri-qanuni müdaxilələrinə qarşı göstərdiyim davamlı müqavimət olub”

**Qobustan həbsxanasında cəza çəkən Nəriman Abbasoğlu prezident İlham Əliyevə açıq məktub yazaraq MTN generallarının müdhiş cinayətlərinin qurbanı olduğunu açıqlayıb: “Mən bir sənətkar olaraq 3 il 10 aydır ki, yaradıcılığımdan məhrum olmuşam. Məni tanıyanlar bilirlər və təsdiq edərlər ki, akustika elmi üzrə ixtisaslaşmış, Azərbaycanda eksklüziv Hi-End kateqoriyalı audiotexnika üzrə yeganə mütəxəssisəm.**




Beynəlxalq audioportal saytının ekspertiyəm. Eyni zamanda yaradıcı sənətkar kimi düzəltdiyim musiqi alətləri ilə musiqi incəsənətinə töhfələr vermişəm. "Üns" teatrının redaktoru olmuşam və “Your Style” şirkətində fəaliyyət göstərmişəm. Sizin də iştirak etdiyiniz bir çox tədbirlərdə səsin yüksək keyfiyyətini təmin edən mütəxəssis kimi audioekspertizaları aparmışam".

**Nəriman Abbasoğlu yazır ki, onun həbs olunması üçün evinə qumbara qoyulub və “tapılıb”:**

“Cənab prezident, evimdən əl qumbarasının tapılması yalandır, mənə böhtan atıblar. Mənim həbsimə səbəb işlədiyim "Your Style" şirkətinin sahibkarlıq fəaliyyətinə MTN Antiterror Mərkəzinin qeyri-qanuni müdaxiləsi zamanı onlara qarşı göstərdiyim davamlı müqavimət olub. MTN generalları hörmətə layiq insanları öz çirkin əməlləri ilə təhqir edirlər. Onlar elmin inkişafında, incəsənətin çox sahələrində fədakarlıqla gördüyü işlərə imza atan Nərgiz xanım Paşayevanın qanuni sahibkarlıq fəaliyyətinə müdaxilə etməkdən belə çəkinmədilər. Bu yolda onların planlarını pozduğuma görə məni həbs edəcəkləri ilə hədələdilər. Mən isə bu hədələrə əhəmiyyət vermirdim. Çünki təhlükəsiz və demokratik ölkədə yaşayır, özümün və ailəmin təhlükəsizliyinin qarantı kimi Sizi görürəm. Qanunsuz həbs olunsam da 3 il 10 ay ərzində ağır həbsxana şəraitində də ədalətə olan inamım məni tərk etməyib. Mənə inam və ümid verən, məni ağır günlərdə ayaqda saxlayan Sizə olan etibarımdır.

**“Ədalətsiz həbsim ailəmin faciəsinə də səbəb oldu”**

Nəhayət, Sizin 17 oktyabr 2015-ci ildə MTN-lə bağlı çıxışınız mənim ümidlərimi doğrultdu. Antiterror Mərkəzinə qarşı etdiyim əməllərin düzgün olduğunu mənə sübut etdi. Sizin çıxışınızdan sonra məni ədalətsiz ittiham edənlər həbs olundu. Antiterror Mərkəzinin rəis müavini İlqar Əliyevin intihar yolu ilə həyatdan getməsi təəssüf doğurur. Amma azyaşlı uşaqların ürək parçalayan ata harayı, ağsaqlı anaların oğul fəryadı yerdə qalmamalı idi. Ədalətsiz həbsim ailəmin faciəsinə də səbəb oldu: ailəmin 2 üzvünü bir-birinin ardınca 2013-cü ilin mayında (ilkin istintaqın ədalətsiz qərarından dərhal sonra), 2014-cü ilin fevralında (məhkəmə hökmü məlum olduqdan sonra) iflic olmaqla ömürlük yatağa bağladı. 17 nəfər MTN maskalılarının qəfildən evimə basqını və atalarının həbs prosesini 2 azyaşlı uşağımın gözü qarşısında həyata keçirmələri övladlarımı nevroloji problemlərlə üzləşdirdi.

Bütün bunlar və sonradan MTN-in təcridxanasında mənə qarşı törədilən qanunsuzluqlar mənim və ailəmin zərərçəkmiş tərəf kimi tanınmasına əsas verir. Sizin ədalətinizə arxalanib xahiş edirəm, təqsirsizliyimi əsas götürərək, mənim bəraət almağıma kömək edəsiz".

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 10 (6331) 15 yanvar 2016

# ABŞ-ın Azərbaycana işi düşüb

**ABŞ prezidenti Barak Obamanın Azərbaycan prezidenti İlham Əliyevi aprel ayında Vaşinqtonda keçiriləcək 4-cü Nüvə Təhlükəsizliyi Sammitinə dəvət etməsi hadisəsindən sonra iki ölkə arasındakı siyasi münasibətlərdə yumşalma hiss olunur. Belə ki, dəvət xəbərinin ardınca yanvarın 13-də prezident İlham Əliyev ABŞ-ın Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru Çarlz Kapçanı qəbul edib.**

## Ekspertlər Bakı-Vaçinqton münasibətlərindəki son durumla bağlı gözləntiləri dəyərləndirir...



Yayılan rəsmi xəbərdə bildirilir ki, görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin müxtəlif istiqamətlərdə inkişafından danışılıb, ölkələrimiz arasında bir çox sahələrdə tərəfdaşlıq münasibətlərinin qurulmasından məmnunluq ifadə olunub. Həmçinin beynəlxalq terrorizmə qarşı mübarizə, təhlükəsizlik sahəsində əməkdaşlıq məsələlərinə toxunularaq Azərbaycan hərbçilərinin Əfqanıstandakı sülhməramlı missiyanın tərkibində uğurlu fəaliyyətinin əhəmiyyəti vurğulanıb.

Ekspertlər hesab edirlər ki, ABŞ üçün dost yox, sadəcə, dövlət maraqları var. Bu baxımdan hesab olunur ki, ABŞ-ın Qafqazda və xüsusilə də Azərbaycanda yeni maraqları yaranıb. Bu səbəbdən iki ölkə arasında münasibətlər yenidən yumşalan xətt üzrə inkişaf edir. Bəs ABŞ-ın Azərbaycandan bu dəfə istəyi nədir?

**Politoloq Fərhad Mehdiyev "Yeni Müsavat"a bildirib ki, Amerikanın Azərbaycandan istəkləri dəyişməyib:** "Əvvəllər nə istəyirdisə, indi də elə onu istəyir. Dəyişiklik yoxdur. Amerika Azərbaycanda şəffaf cəmiyyət istəyir. Bura isə başlıca olaraq açıq sərhədlər və monopoliyasız iqtisadiyyat daxildir. Eyni zamanda məsələ Rusiyanın Qafqazda güclənməsinə imkan verməməkdir. Belə ki, SSRİ-nin dağılmasından sonra ABŞ davamlı və sabit olaraq yeni respublikaların müstəqilliyini dəstəkləyib və onları Rusiyanın təsir dairəsindən uzaqlaşdırmağa çalışıb. İndi də məsələ eynidir".

**Politoloq Mübariz Əhmədoğlu isə hesab edir ki, bundan sonra ABŞ və Azərbaycan arasında münasibətlərin daha da yumşalması gözlənilir:** "Öncəliklə Obamanın Azərbaycan prezidentini Nüvə Təhlükəsizliyi Sammitinə dəvət etməsinə diqqət edək. Bu dəvət Amerikanın daxilində Azərbaycana qarşı münasibətlərdə birmənalı neqativliyin olmadığını göstərdi. Obama administrasiyasının Azərbaycana dəvəti siyasiləşmiş məsələdir. Bununla da ABŞ prezidenti dövlət daxilində bəzi nümayəndələrə öz mesajını verdi ki, Azərbaycan bizə müttəfiq dövlətdir. Ola bilər ki, Nüvə Sammitində Dağlıq Qarabağ məsələsi ciddi şəkildə müzakirə ediləcək. Bunu ATƏT-in amerikalı həmsədri Ceyms Uorlikin davranışlarından da müşahidə etmək olar. Baxın, əvvəllər Uorlik qoşunların təmas xəttində vəziyyətin gərginləşməsini təbliğ edirdisə, indi iki tezisin də ətrafında fikir yürüdür. Bunlardan biri hərtərəfli sülh sənədinin hazırlanması, ikincisi isə Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının dialoqudur. Bu tezislərin ikisi də Azərbaycanın Dağlıq Qarabağ siyasətinin əsas sütunlarıdır. Biz də deyirik ki, hərtərəfli sülh sazişi imzalamalıyıq və icmaların danışığının tərəfdarıyıq. Bütün bunlar isə ermənilərin marağına ziddir. Amerikadan Azərbaycana qarşı söylənilən insan hüquqları ilə bağlı fikirlərin hamısı ermənilərin maraqlarının müdafiəsinə xidmət edir. Hesab edirəm ki, Amerika bu kimi məsələləri anlayıb. Çarlz Kapçanın da Bakıya gəlişi bunun göstəricisidir".

**Politoloq bildirib ki, ABŞ Azərbaycana Səudiyyə Ərəbistanı və İran münasibətləri ilə bağlı hansısa təklif verməz:** "ABŞ-ın İslam dünyası ilə bağlı təxminən on il öncə qəbul etdiyi konsepsiyasında qeyd olunur ki, Türkiyə sünni, Azərbaycan isə şiə cəmiyyətləri üçün nümunəvi dövlət olmalıdır. Bu baxımdan hesab etmirəm ki, ABŞ Azərbaycanı anti-İran, yaxud Səudiyyə Ərəbistanının xeyrinə hansısa aksiyada iştiraka dəvət etsin. Lakin başqa bir məqam var. Amerika Azərbaycanda inam yaratmaqla, Rusiyanın Qafqazda inkişafına mane ola, ortaya öz məqsədlərini qoya bilər. Amerikanın Azərbaycandan hazırkı dövrdə istəyi bu ola bilər. Azərbaycan da öz maraqlarına uyğun layihələri müzakirə edib qərar qəbul edəcək. Son zamanlar Amerikadan Azərbaycana qarşı təzyiqlər o qədər artıb ki, bu səbəbdən Rusiyadan gələn geosiyasi dəstəkləri çox həvəslə qəbul edirik. ATƏT-lə Azərbaycan arasındakı ədavətə dair Rusiya Xarici İşlər Nazirliyinin bir neçə bəyanatı, mövqeyi var. Ancaq ABŞ-dan bunu görmədik".

**Politoloq hesab edir ki, son zamanlar müzakirə edilən ABŞ-dan Azərbaycana qarşı sanksiya məsələsi irəliləməyəcək:** "ABŞ və Azərbaycan arasında hər zaman gərginliyi yaradan birinci tərəf olub. Ümid edirik ki, bu son gərginlik olacaq və iki ölkə arasında münasibətlər bundan sonra daha da inkişaf edəcək".

❑ **Əli RAİS**

# PKK-nın fəallaşmasında Moskvanın "barmağı" var

## Şahin Cəfərli: "Dəmirdaşın Moskva səfərindən sonra PKK-nın aktivləşməsi təsadüfi deyil..."

**Türkiyənin Diyarbəkr vilayətinin Çinar rayonunda polis idarəsi partladılıb. Musavat.com-un Türkiyə mətbuatına istinadən məlumatına görə, PKK-çılar bomba yüklü maşınla polis idarəsinə hücum təşkil ediblər. Bundan sonra bina minaatan və avtomatlarla atəşə tutulub.**



Cavab atəşi açan polislərlə PKK-çılar arasında atışma baş verib. Atışmada 36 nəfər yaralanıb. İndiyə qədər dağıntılar altından bir qadın, bir uşaq cəsədi çıxarılıb. Ölənlərin sayının 5 nəfər olduğu bildirilir. Hadisə yerinə gedən əsgər maşınının isə yolunda yerə döşənmiş mina partlayıb. Partlayış nəticəsində ölən və yaralananın olub-olmaması barədə məlumat yoxdur.

Qeyd edək ki, son günlər Türkiyədə terror aktları artıb. Az qala hər gün PKK və İŞİD tərəfindən bu cür aktlar həyata keçirilir. PKK-nın bu qədər fəallaşmasında HDP sədri Səlahəddin Dəmirdaşın dekabrda reallaşan Moskva səfərinin rolu varmı? PKK və digər terror qruplarının aktivləşməsində Rusiya amili rol oynayırmı?

**Politoloq Şahin Cəfərli Türkiyədəki son terror hadisələrində xarici qüvvələrin barmağının olmasına şübhə etmir:** "Baş nazir Əhməd Davudoğlunun verdiyi açıqlamaya diqqət etdikdə də bu əminlik yaranır. Davudoğlu əlindəki kəşfiyyat məlumatları əsasında İŞİD-in Sultanəhməd meydanındakı terroru məhz başqa qüvvələrin sifarişi ilə törətdiyini və pərdə arxasında "təsirli aktyorlar"ın dayandığını söyləyib. Baş nazirin "təsirli aktyorlar" dedikdə hansısa dövləti və ya dövlətləri nəzərdə tutduğu aydındır. Hazırda regionda - konkret Suriyada və İraqda maraqları Türkiyənin maraqları ilə toqquşan əsas dövlətlər İran və Rusiyadır. Əsəd rejimini və İraq hökumətini də bu sıraya əlavə etmək olar, amma Davudoğlunun Bağdad və Şamı "təsirli aktyor" kimi qiymətləndirməsi ehtimalını zəif sayıram. Əlimizdə fakt olmadan kimisə ittiham etmək doğru deyil, lakin İŞİD-dən və digər qruplardan Türkiyənin maraqlarına qarşı alət kimi istifadə edən pərdə arxasındakı gücələrin İranın və ya Rusiyanın xüsusi xidmət orqanları olduğu yönündə təxmin yürütmək mümkündür. İlk baxışdan bu, ciddi versiya kimi görünməyə bilər, çünki hər iki dövlətin İŞİD-ə qarşı sərt və barışmaz mövqeyi hamıya bəllidir, xüsusən məzhəbçilik nöqteyi-nəzərindən İranı qatı düşmən gözündə görən İŞİD-in bu dövlətlə hər hansı işbirliyini təsəvvür etmək çox çətindir. Lakin terror təşkilatlarının fəaliyyətində sifarişlə iş görmək və bunun əvəzində pul almaq, silah və digər zəruri vasitələr əldə etmək praktikası geniş yayılıb. Hətta onlar çox vaxt əsl sifarişçinin kim olduğunu da bilmirlər və bunu dəqiqləşdirməyə ehtiyac duymurlar. Xüsusi xidmət orqanlarının praktikasında isə ən müxtəlif illeqal qruplardan müxtəlif məqsədlər naminə yararlanmaq praktikası çoxdan mövcuddur. Bu baxımdan məxfi xidmət strukturlarının, yaxud onların bölgədəki özəklərinin İŞİD-dən və digər terror qruplarından yararlanması uzaq ehtimal deyil".

**PKK-ya gəldikdə isə Ş.Cəfərli dedi ki, son vaxtlar bu terror təşkilatının fəallaşmasını və Türkiyəyə qarşı hərəkətə keçməsini də təsadüf kimi qiymətləndirmək olmaz:** "PKK-nın öz strategiyasını həyata keçirməklə bərabər, bölgədə marağı olan bəzi kənar qüvvələrin sifarişlərini də yerinə yetirdiyini qeyd etmək lazımdır. Xarici dairələrin PKK-nı zaman-zaman Türkiyəyə qarşı istifadə etməsi sirr deyil. Regional rəqabətin kəskinləşdiyi hazırkı şəraitdə bu sınanmış vasitəyə əl atılmayacağını düşünmək sadəlövhlük olardı. Həmin xarici qüvvələrin sırasında Rusiya kəşfiyyatının olması da istisna deyil. Prezident Putinin "Türkiyə təkcə pomidorlarla canını qurtara bilməyəcək" sözlərini yaddan çıxarmayaq. Yəni Putin açıq işarə vurmuşdu ki, bizim Türkiyəyə qarşı addımlarımız təkcə iqtisadi sanksiyalarla məhdudlaşmayacaq. Güman etmək olar ki, bu addımların sırasına Suriyadakı kürd qruplaşması PYD (YPG) ilə bərabər, PKK-ya dəstək də daxildir. Əsas məqsəd budur ki, Türkiyənin başı mümkün qədər öz içərisindəki problemlərə qarışsın və regional məsələlərə müdaxilə gücü və imkanları zəifləsin. HDP sədrinin Moskva səfərindən sonra PKK-nın aktivləşməsi də təsadüfi deyil".

**Ş.Cəfərlinin sözlərinə görə, Türkiyənin müvafiq dövlət strukturları terrora qarşı mübarizədə böyük təcrübəyə malik olsa da, aparılan mübarizənin effektivliyi sual doğurur:** "Onların xüsusən Yaxın-Ortaq Şərq mənşəli terrora hazırlıqlı olmadığı ortaya çıxıb. PKK-ya qarşı mübarizədə ixtisaslaşan Türkiyə hüquq-mühafizə və kəşfiyyat orqanları İŞİD kimi əsasən "canlı bomba" metodu ilə terror aktları həyata keçirən "gənc" və dinamik terror qruplaşmaları ilə preventiv mübarizədə hələlik axsayır. Digər tərəfdən, Suriya münaqişəsi başladıqdan bəri bu ölkə ilə sərhəd xəttinin qarşı tərəfində dövlət nəzarətinin tamamilə aradan qalxması, sərhədin Türkiyə tərəfində isə nəzarətin zəifləməsi, eyni zamanda ölkənin ciddi miqdarda köç qəbul etməsi Türkiyə üçün mühüm problem yaradan faktorlardır. Bu şəxslərin hamısını nəzarətdə saxlamaq, onları gündəlik izləmək, "hücrə evi" şəklində konspirativ mənzillərdə yaşayaraq terror aktları planlaşdıran kiçik qrupların varlığından xəbərdar olmaq və onları ifşa etmək asan məsələ deyil. Türkiyə hazırda bu çətinliyi yaşayır".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 10 (6331) 15 yanvar 2016



# Bayraq Meydanının həbsdəki sabiq rəisi haqda yeni xəbər

## Rəşad Məmmədovun üzünə indi də başqa şəxsi durdurmaq istəyirlər

**Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin sabiq rəisi Rəşad Məmmədovun əleyhinə daha bir şəxs ifadə verib. Bu haqda istiqlal.az saytı məlumat yayıb. Sayt istintaqa yaxın mənbəyə istinadən yazır ki, həmin şəxs ev təmir edən ustadır: "O, bir müddət əvvəl istintaqa ərizə verərək Rəşad Məmmədovun ona gördüyü işə görə 2000 manat borcu olduğunu bildirib. Məmməd adlı ustanın vaxtilə Eldar Mahmudovun villalarından birində çalışması haqda da məlumat var".**

Məsələ ilə bağlı R.Məmmədovun vəkili Akif Əlizadə ilə əlaqə saxladıq. A.Əlizadə bildirdi ki, belə bir xəbər eşidiblər. O, müvəkkilinə qarşı qanunsuzluqların nəhayət ki, araşdırılacağına ümid etdiyini dedi: "Rəşad Məmmədovun günahı yoxdur. Sabiq nazirin *(Eldar Mahmudovu nəzərdə tutur - E.M.)* ətrafı Zabil Salmanova təzyiq edib onu Rəşid Məmmədovun əleyhinə ifadə verməyə məcbur etmişdilər. Onları işdən çıxardılar, Zabil Salmanov ərizə verib bildirdi ki, onu Rəşad Məmmədovun əleyhinə yalan ifadə verməyə məcbur ediblər. Ümid edirik ki, həmin ərizəyə tezliklə baxılacaq və ədalətli qərar veriləcək. Sabiq nazirin ətrafından bu gün də vəzifədə qalanları var. Düşünürük ki, növbəti saxta "zərərçəkən"in ortaya çıxması da onun ətrafının işidir. Rəşad Məmmədov onun üzərinə düşən işi vicdanla yerinə yetirib. Bu adamlar onun əmlaklarını ələ keçirmək üçün qanunsuz həbsinə nail oldular. Həmin ittiham aktı sifariş üzərində qurulub, Rəşad Məmmədovun həbsinə süni şəkildə əsas yaratmaq üçün tərtib olunmuşdu. Bunu hamı bilir. Artıq ədalətli qərar verməyin, saxta ittiham aktının ləğv olunmasının zamanıdır. Ümidimiz var ki, Dövlət Təhlükəsizlik Xidmətinin rəhbərliyi məsələni şəxsi nəzarətə götürüb Rəşad Məmmədovun qanunsuz həbsinə son qoyacaq, onun azad edilməsinə göstəriş veriləcək".

**Vəkil bildirib ki. R.Məmmədovun övladları da onun yolunu gözləyirlər:** "Onlar da atalarının qanunsuz həbsdən azad olunması üçün dövlət qurumlarına durmadan müraciətlər edirlər".

Qeyd edək ki, R.Məmmədov 2015-ci ilin mayında MTN əməkdaşları tərəfindən həbs olunub. O, Zabil Salmanov adlı Bakı sakininin əmlakını almaqda və pulunu ödəməməkdə ittiham edilirdi. Eldar Mahmudov vəzifəsindən qovulandan sonra isə Z.Salmanov Baş Prokurorluğa gedərək ərizə yazıb. Ərizəsində göstərib ki, R.Məmmədovun əleyhinə verdiyi ifadə ondan zor tətbiq etmək yolu ilə alınıb, "mahmudovçu"lar onu yalan ifadə verməyə məcbur ediblər. Bu səbəbdən də ifadəsinin yalan olduğunu əsas gətirərək R.Məmmədov barəsində cinayət təqibinin dayandırılmasını, onun azad olunmasını xahiş edib. Z.Salmanovun ərizəsinə hüquqi qiymət verilib-verilməməsi bəlli deyil.

Yada salaq ki, dekabrın 9-da R.Məmmədov və onunla birlikdə həbs edilən - İsfəndiyar İsfəndiyarovla Arzu Məmmədovun barələrində seçilmiş həbs-qətimkan tədbirinin müddəti uzadılıb. Səbayel Rayon Məhkəməsinin qərarı ilə onların hər birinin həbs müddəti 3 ay artırılıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Dollar kreditləri - əhali gözləyir, banklar isə öz xeyrini güdür

## Girovsuz kreditlərdə banklar qazanmaq istəyir, on min dollara qədər kreditlərin məzənnə fərqini kimin ödəyəcəyi müzakirə edilir...

**Dollar kreditlərinin məsələsi yenidən aktuallaşıb. Bu də-fə yayılan xəbərlərə görə, 10 min dollara qədər krediti olanların borcunu əvvəlki məzənnə ilə- dolların 1,05 manat olduğu məzənnə ilə qaytarması mümkün ola bilər.**

Ekspertlər bildirirlər ki, bu, əhalinin deyil, əslində bankların xeyrinə atılacaq addımdır. Yəni banklar bu durumda da özlərinin gəlir əldə etməsini düşünürlər. Çünki on min dollara qədər verilən kreditlərdə demək olar ki, girov yoxdur və böyük əksəriyyəti də qaytarılmayan, problemli kreditlərdir. Bu səbəbdən banklar həmin pulu hansısa üsulla dövlətdən, Mərkəzi Bankdan almaq istəyir.

**Son yayılan xəbərə görə, on min dollara qədər olan kreditlərin məsələsi müzakirə olunur və bir neçə günə qərar veriləcək. "Devalvasiya nəticəsində dollarda krediti olanların borcları iki qat çoxalıb. Burada bizim fikrimizcə, dövlət dəstəyi lazımdır",- deyə "Unibank"ın Müşahidə Şurasının sədri Eldar Qəribov məsələni bir daha gündəmə gətirib.** "Bildiyim qədər məsuliyyətli borcalanlar üçün əhalinin 10 minədək olan dollar kreditlərinin kompensasiyası məsələsi üzərində işləmək tapşırılıb. Yəni dollarla borc alan 1,05 manat kursla ödəyəcək, borcun aradakı məzənnə fərqini isə Mərkəzi Bankın simasında dövlət qarşılayacaq. Biz 360 min ölkə vətəndaşını əhatə edən bu proqramı az gəliri olan əhalinin devalvasiyanın nəticələrindən dəstəklənməsi istiqamətində çox vacib hesab edirik. Bizim dəyərləndirməmizə görə, bu proqramın maksimal həcmi 450 milyon manat təşkil edir ki, bu zaman maliyyələşmə mənbəyi olaraq milli valyutanın devalvasiyası nəticəsində Mərkəzi Bank tərəfindən əldə olunmuş həmin 3 milyard manatın bir hissəsi çıxış edə bilər" - deyə o, bu addımın əhalinin xeyrinə olduğunu açıqlamağa çalışıb.

Həmçinin bildirilir ki, İqtisadiyyat və Sənaye Nazirliyi, Maliyyə Nazirliyi, Mərkəzi Bank, kommersiya bankları və ekspertlərlə birlikdə dolların məzənnəsinin bahalaşmasından doğan problemlərin həllinə yönəlik müzakirələr aparılıb. Mərkəzi Bankdakı mənbədən modern.az saytına verilən məlumata görə, yanvar ayının 20-dən sonra birgə qəbul edilmiş yeni qərarların icrasına başlanılacaq. İlk olaraq dollarla olan kreditlərlə bağlı yaranmış problemin həlli gözlənilir. Belə ki, yaranmış iqtisadi çətinlik şəraitində onsuz da borcunu ödəmək iqtidarında olmayan insanların vəziyyəti nəzərə alınaraq 10 min dollara qədər krediti olanların 21 dekabr devalvasiyasından əvvəlki məzənnə, yəni 1 dollar = 1,05 manat ödənişinə qərar veriləcək. Həmçinin şərtlər dəqiqləşdirildikdən sonra ipoteka kreditlərinin verilməsi bərpa olunacaq. Qeyd edək ki, ipoteka krediti üçün ayrılan vəsaitin 50 min manatdan 100 min manatadək artırılması da nəzərdə tutulub.

**Ekspertlər yayılan xəbərləri fərqli aspektlərdən dəyərləndirirlər. Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a bildirib ki, prinsipcə, 10 min dollara qədər olan kreditlərdəki məzənnə fərqi ödənilə bilər:** "Amma burada bir məsələ var. Banklar bunu etsə, onların itkilərini kim kompensasiya edəcək? Hökumət, yaxud Mərkəzi Bank kompensasiya edəcəksə, bunun üçün ayrıca qanun layihəsi lazımdır. Resurslar lazımdır. Ölkənin resursları çox azdır, məhduddur. Büdcədə bununla bağlı heç bir ödəniş nəzərdə tutulmayıb. Yenidən büdcəyə baxılmalıdır. Büdcədə əlavə vəsait təsbit olunmalıdır. Yəni Mərkəzi Banka əlavə səlahiyyət verilməlidir ki, bunları həyata keçirsin. Çünki bankların da xarici tərəfdaşları qarşısında öhdəlikləri var, daxili kreditləşməni təmin etmək üçün valyuta cəlb ediblər. Onlar köhnə məzənnə ilə xarici tərəfdaşlarına valyuta qaytara bilməyəcəklər. Ona görə məzənnə fərqinin ödənilməsi texniki cəhətdən mümkün olsa da, mənbələri, resursları lazımdır. Resurslar görünmür. Açığı, bu addımın atılacağına inam çox azdır. Amma hətta alınsa belə, bu, məsələnin tam həlli deyil. Çünki insanların onsuz da 1,05-lə də kreditləri geri qaytarmaq imkanı yoxdur. İş yerləri bağlanır, gəlirlər azalır. Gəlirlərin azalması fonunda kreditləri köhnə məzənnə ilə də qaytarmaq çətin olacaq. Bunun bir izahı da var. İkinci devalvasiyaya qədər Azərbaycanda geri qaytarılmayan kreditlərin həcmi iki dəfə artmışdı artıq. Köhnə məzənnə ilə də artıq insanlar kreditlərini qaytara bilmirdilər. Ötən il yanvarın 1-də 900 milyon olan problemli kreditlər noyabrın 1-nə 1,6 milyarda qədər qalxmışdı".

**Ekspert Əkrəm Həsənov isə musavat.com-a açıqlamasında qeyd edib ki, bu məsələ birinci devalvasiyadan sonra da gündəmə gəlmişdi, amma reallaşmadı:** "Kreditlərin əvvəlki məzənnə ilə qaytarılacağı bildirilir, hansı mexanizmlə olması heç yerdə deyilmir. Son olaraq "Unibank" rəsmisinin çıxışından sonra məsələ yenə aktualdır. Bank rəsmisi bildirib ki, məzənnə fərqini Mərkəzi Bank ödəsin. Məzənnə fərqi ilə bağlı təklifi banklar verir. Banklar Mərkəzi Banka deyirlər ki, sən devalvasiyadan 3 milyard qazanmısan. Gəl, indi bizim müştərilərimizin 10 min dollara qədər olan borclarındakı məzənnə fərqini ödə. Müştərilər borclarını




əvvəlki məzənnə ilə qaytarsınlar, yaranan fərqi, o 50 qəpiyi Mərkəzi Bank banklara ödəsin. Aydın məsələdir ki, banklar o borcu kiməsə bağışlamayacaqlar. Kimsə o pulu banklara ödəməlidir, fərqi yoxdur dövlət, bələdiyyə, hansısa varlı insan gəlib o pulu banklara verməlidir. Banklara borcu əvvəlki kursla qəbul et demək qanunsuzluqdur. Bunu yalnız məhkəmə deyə bilər. Amma dövlət, xüsusən də Mərkəzi Bank banklara göstəriş verə bilməz. Amma indi banklar niyə belə təşəbbüs irəli sürür? Bu, əhaliyə hesablanmış addım deyil. Bankların xeyrinə olan addımdır. Ona görə ki, on minə qədər kreditlər üzrə bir qayda olaraq girov yoxdur. Əhali də işsizdir, işsiz olmayanın da maaşı aşağıdır, özünü ancaq təmin edir. Bank da başa düşür ki, onsuz da o krediti qaytara bilməyəcəklər. Vətəndaşın pulu yoxdur. Banklar bilir ki, kreditləri geri ala bilməyəcək, ona görə dövlətə deyir ki, faktiki olaraq sən bizə ödə. Həm də banklar bununla öz işlərini asanlaşdırırlar. Həmin vətəndaşları məhkəməyə verməkdən qurtulurlar və bütün fikirlərini 10 mindən çox borcların üzərində cəmləyirlər. Çünki onlarda girov var. İstisna etmirəm ki, bu təklif qəbul edilsin. Amma burada əsas hədəf əhali deyil, əhaliyə kömək deyil. Əsas hədəf banklara kömək etməkdir".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 10 (6331) 15 yanvar 2016

**Rusiya neftin dünya bazarındakı qiyməti ilə bağlı ən pis ssenariyə hazırlaşır. Rusiyanın baş naziri Dmitri Medvedyev bildirib ki, əgər neftin qiyməti bundan sonra da düşməyə davam edərsə, digər ölkələrdə olduğu kimi, ən pis ssenariyə hazırlaşmaq lazımdır: "Ayağımızı yorğanımıza görə uzatmalıyıq. Büdcə qənaəti hər şeydən öncə dövlət aparatının xərclərinə aid olmalıdır, itirilmiş gəlir isə dövlət aktivlərinin özəlləşdirilməsi ilə əvəz edilə bilər".**



# Azərbaycan "ən pis ssenariyə" hazırlaşmalıdır

## Azər Mehtiyev: "İndiki mərhələdə özəlləşdirmə prosesi korrupsiya halları ilə müşahidə edilə bilər"

Artıq dünya bazarında Azərbaycan neftinin bir barelinin 29 dollara olduğunu nəzərə alsaq, Azərbaycan da ən pis ssenariyə hazırlaşmalıdırmı? Hökumətin vəziyyətə adekvat reaksiyası necə olacaq?

**İqtisadçı ekspert Azər Mehtiyev** bildirdi ki, Azərbaycan da Rusiya kimi neftdən asılı olan ölkədir və neftin ucuzlaşması ölkəmizi daha pis ssenari haqqında düşünməyə məcbur edir: "Rusiyadan fərqli olaraq bizim qeyri-neft sektorundan gəlirlərimiz o qədər də yüksək deyil. Bu baxımdan neftin ucuzlaşması təbii ki, Azərbaycana da ciddi təsir edir və bu artıq özünü göstərir. Azərbaycan üçün qarşıda duran ən vacib məsələ büdcə sferasında ciddi bir qənaət rejiminə keçməkdən başlayır. Ona görə ki, Azərbaycanda büdcə sistemində həddindən artıq bədxərc bir model formalaşıb, çox əsassız xərclər həyata keçirilir. Həm investisiya sahəsində, həm qeyri-investisiya sahələrinə yönəldilən vəsaitlərdə korrupsiya mexanizmləri son dərəcə şişirdilmiş büdcə rəqəmlərinə gətirib çıxarır. Bu baxımdan ən vacib məsələlərdən biri büdcə xərclərinin optimallaşdırılmasıdır. İkinci mühüm istiqamət ciddi struktur ixtisarlarının həyata keçirilməsidir. Burada söhbət indiyədək şişirdilmiş idarəetmə qurumlarında, büdcə təşkilatlarında olan işçilərin ixtisarından gedir. Yeni iş yerlərinin yaradılması adı altında büdcə təşkilatlarında çoxlu sayda lazımsız ştatlar yaradılıb, bunların hansı işlərlə məşğul olması da məlum deyil. Təsəvvür edin ki, Azərbaycanda 1,5 milyon muzdlu işçi çalışır, bunun da təxminən 1,2 milyonu ya dövlət qurumlarında, ya da büdcə təşkilatlarındadır. Bu məsələyə də aydınlıq gətirilməlidir".

**İqtisadçı ekspertin sözlərinə görə, önəmli antiböhran addımlarından biri də dövlət müəssisələrinin xərclərinin optimallaşdırılması və onların gəlirlərinin real olaraq vergiyə cəlb olunması məsələsidir:** "Yeni biz xərcləri ixtisar etməklə yanaşı dövlət büdcəsinin gəlirlərinin artırılmasının da qayğısına qalmalıyıq. Bu istiqamətdə təxirəsalınmaz tədbirlər həyata keçirilməlidir. Artıq büdcə gəlirlərinin artırılması istiqamətində də, dövlət xərclərinin azaldılması istiqamətində də addımlar atılır. Düzdür, indiki halda özəlləşdirmə bəzən qaçılmaz olur. Ancaq indiki mərhələdə özəlləşdirmə prosesi korrupsiya halları ilə müşahidə edilə bilər. Bu günə qədər həyata keçirilən özəlləşdirmə proseslərindən də dövlət büdcəsi hər hansı ciddi gəlir əldə edə bilməyib. Ya burada özəlləşdirmə qiymətinin mənimsənilməsi halı mövcuddur, ya da məmur-oliqarxların əlinə keçməsindən irəli gəlir. İndiki halda da özəlləşdirmə həyata keçiriləcəyi təqdirdə bunun şəffaf və açıq tenderlə baş tutacağı şübhə doğurur. Bu baxımdan özəlləşdirmə hər zaman dövlət büdcəsinə gəlir cəlb etmək üçün bir vasitə hesab olunsa da, təəssüf ki, Azərbaycanda özəlləşdirmə sahəsində biz bunun fərqli təcrübəsini görürük. Özəlləşdirmə həmin obyektlərin hansısa məmur-oliqarxların nəzarətinə keçməsinə gətirib çıxarır, nəinki dövlət büdcəsinə ödənişlərin artırılmasına. Bu baxımdan bizim üçün ən vacib məsələlərdən biri məmur-oliqarx sahibkarlığının aradan qaldırılması, rəqabət mühitinin formalaşdırılmasıdır. Əgər Azərbaycanda qanunlar işləməsə, hamının qanun qarşısında bərabərliyi təmin edilməsə, məhkəmələrin müstəqilliyi təmin edilməsə, rəqabət mühiti formalaşmayacaq".

**Ekspert bir daha vurğuladı ki, hazırkı prosesdə özəlləşdirmə mühiti dəyişdirilmədən özəlləşməyə getməyin əleyhinədir:** "Burada söhbət mütləq şəkildə hansısa qurum və ya obyektlərin satılmasından getmir. Uzunmüddətli idarəetməyə də verilə bilər. Ümumiyyətlə, Azərbaycanda kommunal xidmət sektoruna biznes idarəetməsi gətirilmək üçün onlar uzunmüddətli idarəetməyə verilməlidirlər. Söhbət qazpaylayıcı şəbəkələrdən tutmuş elektrik şəbəkələrinə qədər bütün kommunal sahələrin özəl şəxs və ya təşkilatların idarəetməsinə verilməsindən gedir. "Azəriqaz" və "Azərelektrik"in səlahiyyətləri uzunmüddətli idarəetməyə verilə bilər. Vaxtilə Bakının elektriklə təminatı "Barmek"ə verilmişdi. Sonradan bu qurum ləğv olundu, yenə dövlət bu işi öz üzərinə götürdü. Oxşar qaydada kommunal sferada uzunmüddətli idarəetmə və ən müxtəlif konsepsiya formalarından istifadə edərək özəlləşdirmə siyasəti həyata keçirilə bilər. Bu, dövlət xərcləmələrinin azaldılmasına və fəaliyyətin səmərəli olmasına xidmət edən amillərdir. Ancaq elə obyektlər var ki, onların dövlət mülkiyyətində qalmasına ehtiyac yoxdur, onların özəlləşdirilməsini təşkil etmək mümkündür. Bu cür obyektlərə SOCAR-ın tərkibindəki çoxlu sayda müxtəlif müəssisələri misal çəkmək olar ki, onların səmərəliliyi, şəffaflığı şübhə doğurur. O obyektlərin satılması, özəlləşdirilməsi mümkündür".

**Ayrı-ayrı qurumlara gəlincə, Azər Mehtiyev strateji əhəmiyyəti olan obyektlərin özəlləşdirilməsini mümkünsüz hesab etdiyini vurğuladı:** "Bakı Metropoliteni özəlləşdirilə bilməz. Bu, hansısa formada uzunmüddətli idarəetməyə verilə bilər. Bu strateji əhəmiyyətli bir obyektdir. Bakı Metropoliteni elə bir obyektdir ki, onun özəlləşdirilməsi məsələsinə bir neçə ilə hazırlıq görülməlidir. Bu, uzunmüddətli bir prosesdir. Hazırda əsas məsələ o qurumun xərclərinin şəffaflaşdırılması məsələsidir. Lakin nə qədər dövlət mülkiyyətində qalsa, bu şəffaflıq mümkün olmayacaq".

❑ **Nərgiz LİFTİYEVA**

# "Neftqazavtomat"da maaş üsyanı gözlənilir

## Zavod direktoru fəhlələrə əmək haqqının nə vaxt veriləcəyini bilmir

**Müdafiə Sənayesi Nazirliyinin tərkibində fəaliyyət göstərən, Sumqayıt şəhərində yerləşən "Neftqazavtomat" Elmi-İstehsalat Müəssisəsinin (EİM) fəhlələri əmək haqlarını ala bilmirlər. Fəhlələr deyir ki, 2006-cı ildən MSN-in tərkibində fəaliyyət göstərən zavod sifarişləri uğurla və tam vaxtında həyata keçirib. Onlar bildirirlər ki, zavodun sifarişçiləri sırasında SOCAR-ın "Azneft" İstehsalat Birliyi, Müdafiə Nazirliyi, Sərhəd Qoşunları Xidməti və "Bahar Enerji" əməliyyat şirkəti olub.**

"Dörd əsas, yeddi köməkçi və istehsalat şöbəsi fəaliyyət göstərən "Neftqazavtomat"da 2015-ci il üçün kifayət qədər müqavilələr olub. Bütün müqavilələr vaxtında yerinə yetirilib və bunun qarşılığında müəssisənin hesabına ödəmələr həyata keçirilib. Amma işçilərin əmək haqları may ayına qədər 30-35 faiz səviyyəsində ödənilib. Kollektiv müqavilənin şərtləri birtərəfli surətdə pozulur. Müəssisənin gördüyü işlərin dəyəri işçilərin əmək haqlarından 4-5 dəfə çoxdur. Amma bizim əmək haqlarımız verilmir. Zavodun hesabına 900 min manat köçürülsə də, bizim əmək haqlarını vermirlər" - deyə işçilər bildirib.

Zavodun direktoru Əli Əmirov "Yeni Müsavat"ın əməkdaşı ilə söhbətində fəhlələrə əmək haqlarına görə borcun olduğunu təsdiqləyib. Ə.Əmirov fəhlələrin əmək haqlarının verilməməsini iqtisadi böhranla əlaqələndirib. Fəhlələrin əmək haqlarının nə vaxt veriləcəyini özünün də bilmədiyini açıqlayıb. Qeyd edək ki, fəhlələr problemin həlli üçün zavodun baş mühəndisi Firad Cəfərova müraciət etsələr də, problem həll olunmayıb. Firad Cəfərov "Bizim Yol" qəzetinə deyib ki, fəhlələrin əmək haqqının ödənilməsi sifarişçilərdən asılıdır: "Müəssisə sifarişləri uğurla həyata keçirir. Müdafiə Nazirliyindən aldığımız sifariş əsasında gördüyümüz işi bitirib ötən il noyabrın 15-də təhvil verdik. Bunun nəticəsində müəssisənin hesabına 1 milyon manata yaxın vəsait köçürülməlidir".

F.Cəfərov bildirib ki, müəssisə əməkdaşlarının maaşında gecikmələrin olması halı bəzi sifarişçi təşkilatların borclarını tam ödəməməsi ilə bağlıdır: "Onlardan biri Dövlət Neft Şirkətidir. Bu şirkətin bizə 600 min manat borcu var".

❑ **E.MƏMMƏDƏLİYEV**

# Məcburi köçkünlərə bəd xəbər: bir sıra güzəştlər ləğv ediləcək



**Neftin qiymətinin kəskin ucuzlaşması və dövlət büdcəsinin gəlirlərinin həddən artıq aşağı düşməsi ölkənin ən həssas əhali qrupu olan məcburi köçkünləri də "vuracaq". Əldə etdiyimiz məlumata görə, hökumətdə məcburi köçkünlər üçün güzəştlərin müəyyən qisminin azaldılması, müəyyən güzəştlərin ləğvi məsələsi müzakirə edilir.**

Baş nazirin müavini, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənovun prezidentin iştirakı ilə keçirilən Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışında da bunun anonsu verilib. Əli Həsənov hazırda təkcə Bakı şəhərində 150 min nəfər məcburi köçkünün istismara yararsız yataqxana, pansionat, yarımçıq tikililərdə olduqca çətin şəraitdə yaşadığını bildirməklə yanaşı deyib ki, məcburi köçkünlərə nəzərdə tutulan güzəştlərin tam təhlili aparılıb, 2016-cı ildə komitəyə ayrılan büdcədən 40 milyon manata qədər vəsaitə qənaət edilməsi üçün təkliflər hazırlanıb. Həmin təkliflər aidiyyəti nazirlərlə müzakirədən sonra yaxın vaxtlarda ölkə prezidentinin diqqətinə təqdim ediləcək. Əli Həsənov həmçinin məlumat verib ki, 2015-ci ildə komitəyə ayrılmış büdcədən, yaranmış maliyyə çətinlikləri nəzərə alınaraq, 5 milyon manat vəsaitə qənaət edilib.

Əli Həsənov dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə, şəffaf şəraitdə xərclənməsi ilə bağlı bildirib ki, məcburi köçkünlərin istifadə etdikləri kommunal xərclər müəyyənləşdirilmiş normativlər üzrə mərkəzləşmiş qaydada, birbaşa xəzinədarlıq vasitəsilə xidmət təşkilatlarına, müavinətlər isə plastik kartlarla ödənilir. Nəticə etibarilə artıq 10 ildir ki, vəsaitlərin ödənişində canlı təmas amili tam aradan qaldırılıb. Onun sözlərinə görə, bu sahədə işlərin təkmilləşdirilməsi həm müvafiq icra hakimiyyətləri, həm də xidmət təşkilatları ilə birlikdə həyata keçirilir. Qaz və elektrik enerjisi sahəsində sayğaclaşma işləri tam başa çatdırılıb.

Qeyd edək ki, hökumət tərəfindən Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ayrılan vəsaitlər hesabına məcburi köçkünlərin kommunal xidmətləri xüsusi limit tətbiq edilməklə ödənilir. Eyni zamanda məcburi köçkünlərə 18 manat aylıq yemək xərci verilir. Bundan başqa, kənd rayonlarında məskunlaşan məcburi köçkün ailələri yanacaqla təmin olunurlar.

Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən "Yeni Müsavat"a bildirildi ki, təkliflər paketi hazırda hökumətlə müzakirə edilir. Müzakirələr yekunlaşdıqdan və təkliflər paketi ölkə başçısına göndərildən sonra qənaətin məcburi köçkünlərə güzəştlərə hansısa şəkildə təsir edib-etməyəcəyi açıqlanacaq.

Ekspertlər isə bildirir ki, bahalaşma və işsizlik onsuz da məcburi köçkünlərin də yaşayışına mənfi təsirini göstərir. Güzəştlərin ləğvi əhalinin bu təbəqəsinin güzəranını daha da ağırlaşdırar. Rayonlarda elə məcburi köçkün ailələri var ki, sözügedən komitənin ayırdığı 18 manat (hər nəfər üçün) çörəkpulundan başqa heç yerdən gəlirləri yoxdur. Güzəştlərin ləğvi belə ailələri xüsusilə acınacaqlı situasiya ilə üz-üzə qoya bilər.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 10 (6331) 15 yanvar 2016




**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Bu dünyada insanların əsas vəzifəsi - hazırlaşmaqdır. Bu dünya - müvəqqəti dayanacaq yeridir. Müvəqqəti yerdə insanın başlıca vəzifəsi - gedəcəyi, daimi qalacağı yer üçün hazırlaşmaqdır. Bu dünya, böyük səfər öncəsi hazırlıq yerinə bənzəyir. Necə ki, Həcc ziyarətinə getməyi niyyət edən insan öncədən hazırlaşır, oranın qayda-qanunlarını öyrənir, orada edəcəyi işləri öyrənir.**

# Ən böyük müsibət - iman müsibətidir

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Həcc ziyarətinin mənasını öyrənir, Beytullahın məqamını bilir, təvafın nə olduğunu anlayır, "ləbbeyk" deyərkən nələri nəzərdə tutmalı olduğunu öyrənir, ehramlaşarkən nələri etməli və nələri etməməli olduğunun fərqinə varır. Çünki bunlara öncədən hazırlaşır. Hazırlıqlı halda gedən insanın artıq orada müəyyən çətinliyi olmur. Çünki artıq hazırlıqlarını görüb, ora üçün azuqə və lazımi yükünü toplayıb. Eləcə də insan axirəti üçün hər mənada hazırlaşmalıdır.

## Bu dünyada ən vacib işimiz - özümüzü islah etməkdir

Ariflərdən birinin dediyi söz, ifadə insanlar üçün çox əhəmiyyətli ola bilər. Bu söz hamımız üçün önəmlidir. Bizim dildə bu söz tam olaraq oturuşmayıb. Gərək çox işlədək ki, dilimizdə otursun. Bu, "özünüdüzəltmə", "özünüislah" kəlməsidir. Son illərdə din maarifçiliyi, İslam maarifçiliyi artdıqca dilimizdə bu ibarə oturmağa başlayır. Amma o cür ki, lazımdır, hələ qəbul olunmayıb. Böyük ariflərdən biri buyurur: **"Bizim bu dünyada yaşayışımızda özünü düzəltmə və özünüislahdan daha vacib işimiz yoxdur".** Bizim mövcudiyyətimizin ən vacib işi - özünüdüzəltmə və özünüislahdır. Bu sözdə hər bir şey var. Bizim mövcudiyyətimizin, bu dünyada yaşamağımızın, olmaqlığımızın, həyatımızın içərisində ən vacib, ən önəmli, ən əhəmiyyətli məsələ - özünüdüzəltmə və özünüislahdır. Əgər bu varsa, digər məsələlər də var. Əgər bu yoxdursa, heç bir şey yoxdur. Əgər bu varsa, başqa hər bir şeyin mənası var. Bu yoxdursa, başqa heç nəyin mənası yoxdur.



Mübarək ayların, mübarək əyyamların yeganə və əsas hədəfi buna xidmət etməkdir. Bütün bu aylar, əyyamlar, günlər insan üçün özünüislah və özünüdüzəltmə baxımından fövqəl imkanlar yaradır. Dinimizin tövsiyə etdiyi mübarək əyyamlar başdan-ayağa bizə özümüzü düzəltməyə, özümüzü islah etməyə fürsət və imkanlar verir. Bu əyyam xüsusilə insanın özünüislahı üçün hazırlanmış mənəvi bir səfərdir. Necə ki, həccə gedənlər bu səfərdə özünüislah və özünüdüzəltmə ilə məşğul olur, rəhmli olan Allah gedə bilməyənlər üçün də bu fürsət və imkanları yaradır.

## Rəbbimiz özümüzü islah üçün böyük fürsətlər verir

İnsanın həyatında enerjisi özü ilə bağlı bir çox məsələlərə sərf olunur. Fiziki mənada özü, insan üçün çox önəmlidir. Fiziki anlamda özü ilə bağlı insan çox maraqlanır. Bir yeri ağrısa, gedib qaydasına salır. Gözü görməsə, gedib müalicə edir, düzəldir. Orqanizmində problem olanda onu həll etmək istəyir, bir yeri ağrayanda onu aradan aparmaq istəyir. İnsan fiziki anlamda özü ilə bağlı hər şeyə diqqət edir. Ümumiyyətlə, insan özü ilə bağlı çox mövzulara diqqət edir. Bunlar özlüyündə önəmli və çox mühümdür. Amma yetərli deyildir. İnsan tək fiziki bədəndən ibarət deyil. Odur ki, öz vücudi durumuna, mənəvi tərəfinə xüsusi diqqət etməlidir. Mübarək əyyamların xüsusi bir missiyası, xüsusi verdiyi imkan budur ki, bu zamanlarda insan özünü düzəldə, islah edə bilər. Mübarək əyyamları tanıma baxımından bu söz hər mənada bəs edə bilər. Bu əyyamlar bizlərin islahı üçün, hər birimizin özünü düzəltməsi üçün fövqəl dərəcədə şəraitlərə malikdir. Allahdan istəyimiz budur ki, bizlərə bu mövzularda diqqətli olmağı nəsib etsin.

## Ən böyük müsibət - iman müsibətidir

İnsanın müsibətləri, imtahanları, qarşılaşdığı çətinliklər zamanı davranışı onun kimliyini ortaya çıxarır. Həzrət Əli (ə) ən böyük müsibət barədə sualı cavablandırarkən, buyurur: **"Ən böyük müsibət - dində faciə və müsibətdir".** Yəni ən böyük müsibət - insanın dinində olan faciə və müsibətidir. Ən böyük müsibət budur ki, insan dini baxımından, mənəviyyatı baxımından, özünü düzəltmə, özünü islah baxımından zay vəziyyətdə olsun. Bu mövzular onun həyatının mərkəzi mövzusu olmasın. Din məsələlərində itki versin. Namazında, orucunda, namazının keyfiyyətində itki versin. İnsanlar üçün nə zaman deyilər ki, ağır müsibətlə qarşılaşıb? O vaxt ki, insan olanından nəsə itirir və yaxud hansısa ağrılı məsələlər onun üzərinə gəlir. Bu zaman deyilir ki, bu vəziyyət çox ağırdır, çox çətindir, çox sınaqlıdır. Həzrət Əli (ə) bildirir ki, bu müsibətlərin, bu itkilərin, bu sınaqların, imtahanların içərisində ən ağrılısı, ən facəlisi budur ki, insan dini ilə bağlı itki versin. Namazında, mənəviyyatında, ruhiyyəsində, təqvalılığında itki versin. Bu, çox böyük bir müsibətdir.

İl boyu təqdim olunan əyyamlar - istət Zilhiccə ayının ongünlüyü olsun, istər məhərrəm-səfər əyyamı olsun, istər mübarək Ramazan ayı olsun, istər rəcəb-şəban əyyamı olsun, istər "Əyyami-Fatimə (s.ə)" olsun, istər "Kəramət günləri" olsun - ümumiyyətlə bütün mübarək aylar, əyyamlar - çox gözəl fürsətdir. Biz gərək halımıza nəzər salaq. Görək bizim bu kimi istiqamətlərdə nə itkilərimiz, nə müsibətlərimiz var. Bunlara diqqət etdikdən sonra bunları düzəltməyə çalışaq. Namazın yeri, əhəmiyyəti həyatımızda necədir? Namaza başladığımız vaxtdan indiyə qədər onun həyatımızda əhəmiyyəti artıb, ya azalıb? Əgər heç azalmayıb, amma artmayıbsa da - demək ki, itirmişik. Deməli, böyük müsibətlə qarşılaşmışıq. Bir-bir digər əməllərə, rəftar və davranışlarımıza da nəzər salaq. Görək, qeybət etməklə, yalan danışmaqla, pis sözlər deməklə, qəlb qırmaqla, paxıllıq, həsəd, başqalarının başına gələn müsibətlərə sevinməklə bağlı vəziyyətimiz necədir? Namaza başladığımız vaxtdan bəri bu istiqamətdə ciddi irəliləyişlərimiz olub, onları tərk etmişik, ya yox? Əgər durumumuz daha yaxşıya doğru dəyişməyibsə, demək ki, müsibət içərisindəyik, vəziyyətimizi düzəltməliyik. Ailədə münasibətlərimizi təftiş edək ki, nələr dəyişib? Valideynlərin övladlar qarşısında, övladların valideynlər qarşısında, həyat yoldaşlarının bir-birinin qarşısında müsbətə tərəf ciddi dəyişikliklər baş veribmi? İnsan gərək nəzər salsın ki, bu mövzularda mükəlləfiyyətlərini yerinə yetirməklə bağlı vəziyyəti necədir? Ən böyük müsibət bu deyil ki, insan fiziki, maddi anlamlarda itkilər versin, ya sınaqlara çəkilsin. Onlar onsuz da bir gün insanların əlindən çıxacaq. Ən böyük imtahan, sınaq və müsibət budur ki, insan dini ilə bağlı itki versin. Çünki, bunlar insanın aqibəti ilə bağlı olan məsələlərdir və bu dünyadan sonra da ona gərəkən məsələlərdir.

## İnsanın dünyaya baxışı nədirsə, həyatı da odur

Həzrət Əmirəlmöminin (ə) yenə də ən böyük müsibətlə bağlı buyurur: **"Ən böyük müsibət - qəlbi dünyaya bağlamaqdır".** Yenə də mərifət və bəsirət bəhslərinə qayıdır. İnsanın dünyaya baxışı, tanıması, mərifəti, bəsirəti necədirsə, həyatı da odur. Bir var ki, qəlbini dünyaya bağlayıb, bütün baş verənləri bu kontekstdən, bu bucaqdan dəyərləndirir. Bir də var ki, qəlbini aqibətlə bağlayıb. İnsanın qəlbi aqibətə yönəlik, axirətə yönəlik tənzimlənir. Onun baxış bucağı fərqli olacaq. Buna görə də, Həzrət Əli (ə) buyurur ki, ən böyük müsibət - qəlbi dünyaya bağlamaqdır. Əgər qəlb dünyaya bağlanmış olsa, artıq həmin qəlbin bütün durumu dünya məsələləri ilə bağlı olacaq.

Qəlbi dünyaya bağlamaq qeyri-adi bir məsələ deyil. Qəlbi dünyaya bağlamaq odur ki, insan bu dünyanın məsələləri, mövzuları ilə yaşasın. Bu gün ən geniş yayılmış məsələdir. Çox zaman biz dünyaya bağlanırıq, bizi ancaq dünya maraqlandırır, dünyanın mövzuları bizi maraqlandırır, başqa nə olursa da, bu baxımdan dəyərləndirir, nəzərdən keçiririk. Qəlbini dünyaya bağlayan insan bəzən namaz da qılar. Bunu sadəcə vacibat olduğu üçün, üzərindən götürülsün deyə qılar. Əgər qəlbimiz aqibətə, Qiyamətə bağlanmasa, həyatımızda bütün rəftar və davranışlarımız bu dünya ilə məhdudlaşar. Əgər qəlbimiz aqibətə bağlansa, hətta zahirdə fiziki və maddi kimi görünən məsələlərimizi də Allahın razılığını qazanmaq üçün görmüş olarıq. Baxış bucağı bu qədər fərqlidir.

Əziz Məsumlarımız (ə) bu durumun həlli ilə bağlı da önəmli tövsiyələr verir. Həzrət Rəsulallah (s) buyurur: **"Hər kim qəlbindən dünya məhəbbətini çıxarsa, müsibətlər ona asan gələr".** Əslində əziz Peyğəmbərimizin (s) buyurduğu məsələlər, yuxarıda buyurulanların bir cavabıdır. Bunlar bir-biri ilə sıx bağlı məsələdir. Əgər qəlbimiz dünyaya deyil, axirətə bağlı olsa, dünya müsibətləri bizim üçün bir o qədər də ağrılı olmaz. Bilərik ki, onsuz da bu dünyada nə varsa, hamısı müvəqqətidir. Ya bir gün onlar bizi tərk edəcək, əlimizdən çıxacaq, ya da bir gün biz onları tərk edəcəyik, itirəcəyik. Belə isə, bizim üçün əsl müsibət - daimi olan məsələlər, axirətimiz və aqibətimizlə bağlı olan məsələlər olar. Buradan aydın olur ki, qəlbin bağlanma ünvanı, insanın aqibətini müəyyən etmək baxımından paradiqmal müəyyənedicilik funksiyası daşıyır.

## Aqibətimizi düşünsək, həqiqi müsibətin nə olduğunu dərk edərik

Həzrət Əli (ə) buyurur: **"Ölümü, qəbirdən qalxıb Allah qarşısında dayanacağınız günü çox yad edin ki, müsibətlər sizə asan olsun".** Çox nurani, bəlağətli və incə buyuruşdur. Əgər biz o günümüzü, sonumuzu, ölümümüzü və Allah qarşısında dayanacağımız günü yad edə bilsək, bizim üçün həqiqi müsibətin nə olduğunu dərk edərik. Anlayarıq ki, bu dünya ilə bağlı olan müsibətlər, dində verdiyimiz itkilərin, Qiyamət günü bizə lazım olan, amma onları bu dünyada qazana bilmədiyimiz, itirdiyimiz məsələlərin və bununla da yaşadığımız həqiqi müsibətin yanında heç nədir.

## Dində müsibət nədir?

Həzrət İmam Sadiq (ə) müsibət baş verən zaman buyurur: **"Şükür olsun Allaha ki, o məni dinimdə müsibətə salmadı. Şükür olsun o Allaha ki, əgər istəsəydi, müsibətim bundan da böyük olardı. Şükür olsun o Allaha ki, bir işin baş verməsini istədi və o da baş verdi".** Dində müsibət budur ki, adam rahat şəkildə yalan danışır, rahat sui-zənn edir, söyüş söyür, rahat şəkildə insanların qəlbini qırır, ürəkləri yaralayır. Dində müsibət budur ki, insan mükəlləfiyyətlərini yerinə yetirmir, amma vecinə də deyil, namazına qarşı laqeyddir və s. Belə insan bütün günü ipəkqurdu kimi elə dünya işləri ilə, dünya məşğuliyyətləri ilə olur, özünü bunun içində məhv edir. Belə insan aqibəti ilə bağlı da heç bir şey etməz. Dində müsibət budur. Dində müsibət budur ki, insan ictimai həyatında təvəlla (Allah dostları ilə dost olmaq) və təbərra (Allah düşmənləri ilə düşmən olmaq) kimi anlayışlara önəm vermir. Onu bu vəziyyət narahat etmir. Dində müsibət budur ki, insan halal və haram sərhədlərinə önəm vermir. Dində müsibət budur ki, insanın yaşayışı, yediyi, içdiyi, mövcud olduğu məsələlər onun üçün aqibət baxımından önəm daşımır. Dində müsibət budur ki, bir zəhmətkeş, çalışan insan o iş əxlaqına ki, malik olmalıdır, onu yerinə yetirməsin. Bunlar hamısı bir-birinə bağlı məsələlərdir. Günlərini yola verir, beləcə ömrü başa çatır. Ən böyük müsibət budur. Əgər biz namazımızı tanısaq, namazımıza aqibətimiz baxımından yanaşsaq, onun üçün öncədən hazırlaşarıq, xüsusi durumla, təntənə ilə hazırlaşarıq.

Bütün bunları nəzərə alaraq, bir daha qeyd etməliyik ki, bizim mövcudiyyətimizdə, yaşayışımızda, olmağımızda özünüislahdan və özünüdüzəltmədən daha mühim işimiz yoxdur. Bu və bunun yanında digər məsələlər də olsa, bu zaman biz dinimizdə müsibət yaşadığımız anları duyacaq və onları dərhal aradan aparmağa çalışacağıq. Əks təqdirdə, ümumiyyətlə bu kimi mövzular bizləri narahat belə etməyəcək. Biz bütün məsələlərimizə özünüdüzəltmə baxımından yanaşmalıyıq. Biz ailəyə bu cür baxmalıyıq ki, ailə qurulur ki, Allah dərgahında iki bəndə birgə yaşasın və İlahi hüzurda mənəvi təkamüllərini daha sürətli keçsinlər. Ailəyə bu cür yanaşılmasa, təbii ki, orada dava-dalaş da, söz-söhbətlər də, digər Allahın bəyənmədiyi məsələlər də olacaq.

**Allahdan istəyimiz budur ki, bizləri bu məsələlərdə qəflətdə olmağa qoymasın.**

**Allahım, bizlərin müsibətini dinimizdə qərar vermə!**

**Allahım, bizlərə bu dünya həyatımızı özünüislah və özünüdüzəltmə üzərində yaşamağı nəsib et!**

**Allahım, aqibətlərimizi xeyirli et! Amin!**

YENİ MÜSAVAT
N 10 (6331) 15 yanvar 2016

**Çörək Azərbaycanın qida rasionunda çox önəmli yer tutur. Məhz buna görə də çörək mövzusu Azərbaycan xalqının ən həssas yeridir desək, yanılmarıq. Yalnız Azərbaycanda çörəklə bağlı misallar, atalar sözləri, nağıllar, cizgi filmləri var. Hətta vaxtilə "Undum, qoğal olmuşam" adlı nağıl da "Çırtdan və div" qədər məşhur idi.**



Əhməd Qəşəmoğlu

# "Undum qoğal olmuşam" və ya biz niyə çox çörək yeyirik...

## Əhməd Qəşəmoğlu: "Çörəyi əvəz edəcək heç nə yoxdur"

Buradan da görünür ki, Azərbaycanda çörəyə aşırı sevgi hələ uşaqkən aşılanır, bir çox ölkələrdən fərqli olaraq yalnız biz yerə düşən çörəyi öpüb gözümüzün üstünə qoyuruq. Hətta Azərbaycan ən çox çörək istehlak edən xalq kimi tanınır. Buna görə də çörəyin qiymətində, çəkisində dəyişiklik baş verən kimi bu, insanların birbaşa yaşam tərzinə, düşüncələrinə və psixologiyasına təsir edir.

Son günlər bir sıra rayonlarda baş verən aksiyaların səbəbi məhz çörəyin, unun qiymətinin bahalaşmasıdır. Azərbaycanda bahalaşma yaranan kimi marketlərə qaçaraq kisələrlə un alanlar da oldu. Bəlkə də unun qiymətinin iki dəfəyədək bahalaşmasına əhalinin una yaratdığı tələbat səbəb olub.

Maraqlıdır, Azərbaycan xalqının çörəyə olan bu aşırı sevgisi, həssaslığı haradan qaynaqlanır? Buna səbəb bir zamanlar baş verən aclıq, çörək qıtlığı, uzun-uzadı çörək növbələri ola bilərmi? Əhali şüuraltı yenidən həmin dövrlərə qayıtmasından qorxduğu üçün belə edir?

**Sosioloq Əhməd Qəşəmoğlu Azərbaycanın yaxın tarixində çörəklə bağlı çox problemlərinin olduğunu, bu tarixin də insanlara təsir etdiyini bildirdi:** "Yaşı 60-dan yuxarı olanlar xatırlayır ki, 50-ci illərin axırı - 60-cı illərin əvvəlində Azərbaycanda çörəklə bağlı çox ağır bir problem oldu. Hətta o vaxtlar çörək elə bir vəziyyətdə olub ki, insanlar heyvanlara verilən jımıxı yeyirdilər. Bir ara buğda unu yox idi, qarğıdalı unu yayılmışdı. Bir müddət keçdikdən sonra 1965-ci ildə yenidən çörəklə bağlı qıtlıq, çətinlik yarandı. Yadımdadır ki, saatlarla çörək növbəsinə dayanırdıq. Elə 1990-cı ilin əvvəllərində, sovet hökuməti dağılandan sonra da ölkədə müəyyən qədər çörəklə bağlı problem oldu. O dövrlərdə olan çörəklərdə keyfiyyətsiz idi. Məlum olurdu ki, bu çörəklərin əksəriyyəti insanın qidalanması üçün əhəmiyyətli deyil. Yaşı 60-dan yuxarı olanlar ən çətin dövrləri görüblər. Yaşlı insanlar ictimai rəyi formalaşdırır. Buna görə də çətinlikləri görmüş yaşı 60, 70, 80 olanlar uşaqlarına dərhal deyir ki, tez un alın. Yəni bu ölkə ağır vəziyyəti II Dünya müharibəsindən sonra dəfələrlə görüb. Bunun nəticəsini də görüblər. Yadımdadır ki, 1958-1959-cu illərdə Cəbrayıl rayonundan bir xalçanı Naxçıvana aparıb bir kisə una dəyişirdilər, yaxud da nə qədər qızılı götürüb buğdaya dəyişirdilər. Yəni indiki nəslin ağsaqqalları, ağbirçəkləri çörəklə bağlı çox çətinliklər görüb. Ona görə də bu onların yaddaşlarında qalıb".

**Sosioloq çörək və suyun əvəzedicisinin, alternativinin olmadığını, buna görə də əhalinin çörəyə bu qədər həssaslıqla yanaşdığını dedi:** "Hər kəs bilir ki, bu gün ət olmasa onu yeməmək də olar, kartofla və ya başqa qida ilə dolanmaq olar. Təsəvvür edə bilərsiniz ki, hansısa bir evə bir gün çörək getməsin. Həmişə deyirlər ki, insanların ən çox möhtac olduğu çörək və sudur. Bir rayonda suyu bir gün kəsənə böyük problem olur. İnsanların da dövlətdən ən çox asılı olduğu şey çörəklə sudur. Çörəyi əvəz edəcək heç nə yoxdur. Yoxsul təbəqə üçün hər şeyin alternativi, əvəzedicisi var. Amma çörəklə suyun əvəzedicisi yoxdur. Ona görə də ilk növbədə yada düşən çörəklə sudur. Bu, bir növ özünü müdafiə kompleksidir. İnsanlar öz ailəsini müdafiə etmək, sabah gərginliyin yaşamaması üçün çörək tədarükünü görür. Bu dəqiqə ən böhranlı məsələ çörəklə bağlıdır. İnsanlar həyatını xilas eləmək üçün bayaq sadaladığım çörəklə bağı tarixi təcrübəni göz qabağına alaraq çörək məhsullarına olan ehtiyatlarını görməyə çalışırlar"

❑ Günel MANAFLI

# Jurnalistlər də qənaət rejiminə keçir...

**Ölkədə yaranmış vəziyyətlə bağlı hökumət qənaət rejiminə keçir. Beləliklə, qənaət mövzusu Azərbaycan cəmiyyətində gündəmə oturmaqdadır. Bəs görəsən, jurnalistlər nəyə qənatə edir?**

Mövzu ilə bağlı bir neçə tanınmış jurnalistin rəyini öyrəndik.

**APA TV-nin əməkdaşı Natiq Qədimov** toy tədbirlərini "ixtisara" saldığını deyib: "Toylara demək olar daha çox yaxın bildiyim şəxslərin məclisinə gedirəm. Bundan əvvəl hər dəvətnamə verilən uzaq qonşumun, qardaşımın əsgərlik yoldaşının toyuna belə gedirdimsə indi çalışıram bu məsrəfləri azaldım".

**Jurnalist bazarlığa da qənaət etdiyini bildirib:** "Marketdən bazarlığı da azaltmışam. Həftədə 2 dəfə olduğum market alış-verişini aya uzağı 3 dəfəyə salmışam..."

**Jurnalist Kamil Həmidov isə suala "Nəyimiz var ki, ona da qənaət edək" sualı ilə cavab verib:**



**Seymur Verdizadə:**
"Gündə bir tikə çörək yeyirik, indi bir o qalıb ki, çörəkdən də imtina edək"



**Zamin Hacı:**
"Ancaq yeməyimizdən kəsib qənaət edə bilərik, başqa heç bir fikrim yoxdur"

"Açığını deyim ki, qənaət məsələsi yaxşı məsələdir. Amma baxır harada və necə... Qənaət o yerdə olur ki, insanın sosial-iqtisadi, maddi imkanı qənaəti etməyə, qənaətə keçməyə imkan verir və ya versin. Bizdə isə durum tam əksinədir. Yəni həqiqən, sosial-iqtisadi, maddi durumumuz-böyük əksəriyyətdən söhbət gedir- imkan verirmi ki, yaranmış, tamahkar və Allahsız məmurların üzündən ortaya çıxmış acınacaqlı vəziyyətlə bağlı qənaət rejiminə keçək? Əsla yox! Onsuz da indiyə kimi birtəhər günümüzü yola vermişik, qəpiyimizi-qəpiyimizə calamışıq-həmçinin borclardan, kreditlərdən asılı vəziyyətdə qalmışıq, şapalaqla üz qızartmışıq və sairə. İndi belə olan halda daha nəyə qənaət edəcəyik və ya etməliyik? Udduğumuz zəhərli havayamı, tərkibində min cür bakteriyalar olan, yəni icdiyimiz suyamı qənaət edəcəyik və ya etməliyik? Nəyimiz var ki, ona da qənaət edək?"

**Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli isə həyatında heç bir dəyişiklik hiss etmədiyini deyib:**

"Həyatımda ciddi bir dəyişilik hiss etmirəm. Azərbaycanın 90-cı illərdəki vəziyyətini keçən bir adamam. Yəni həmin dövr indiki ilə müqayisəyə gəlməyəcək dərəcədə həm iqtisadi, həm sabitlik və digər məsələlərlə bağlı daha problemi bir dövr idi. O vaxtdan qənaətlə yaşamaq sanki xarakterimizə keçib. Təbii ki, situasiyanın dəyişməsindən aslı olmayaraq həmişə şəxsi işimdə, ailəmdə artıq xərclərdən, təmtəraqlı həyat tərzindan uzaq olmuşam, minimum şəraitlər və təminatlarla idarə olunmağa adət etrmişəm. O dövrü yaşayan insanların əksəriyyətində bu cəhət var. Yaranmış indiki çətin vəziyyət yeni stiuasiyadır, təbii ki, bu vəziyyətdən çıxacağıq".

**Müşfiq Ələsgərli toy dəvətlərini də təxirə salmadığını vurğulayıb:** "Onsuz da bundan əvvəl də ən yaxın tanış hesab etdiyim adamların toyunda iştirak etmişəm. Bu, bir qədər qəribə səslənməsin. Toy və hüzr mərasimlərinə mənim baxışım fərqlidir. Nə özüm bu cür mərasimləri keçirəndə artıq xərclərə yol verirəm, nə də başqalarının dəbdəbə xatirinə keçirdiklərinə".

**Buna baxmayaraq, Müşfiq Ələsgərli qənaet etdiyi məsələlərdən də bəhs edib:** "Bilirsiz ki, prezidentin qərarı ilə jurnalistlərə ev verilmişdi, mən də ev alanlar sırasındayam. Həmin evdə quruculuq işləri ilə məşğul olmaq, yeni mebellərin alınması və sairə bu kimi digər məsələləri hələlik təxirə salıb minimum şərtlərlə yaşamağa başlamışıq".

**Tanınmış jurnalist Seymur Verdizadə bu cür stiuasiyalarda xərcləri azaltmaq deyil, gəlirləri çoxaltmaq üçün çalışdığını vurğulayıb:** "Onsuz da biz heç vaxt sağa-sola pul xərcləməmişik, həmişə bir qəpiyin belə qədrini bilmişik. İndi belə çıxır ki, o qəpiyin qədrini iki qat artıq bilməlyik.

Mənim xərclərim onsuz da məhdud olub. Buna görə də heç vaxt şəxsi gündəlik xərclərimdə israfçılığa yol verməmişəm. Siqaretdən, alkoqollu işkilərdən uzaq olduğum üçün mənim hansısa əlavə bir xərcim olmayıb. Gündə bir tikə çörək yeyirik, indi bir o qalıb ki, çörəkdən də imtina edək. Beləliklə, xüsusi xərclərim yoxdur ki, onları təxirə salım. Həyat şəraitim elədir ki, hər şey planlaşdırılıb. Uşaqlarımın təhsili, təlim-tərbiyəsi, gündəlik tələbatlarını da təxirə salmaq niyyətində deyiləm. Ona görə də hələlik qənaət barəsində düşünmürəm. Əgər seçim qarşısında qalaramsa, ilk növbədə özümə məxsus xərclərimi azaldaram. Əsasən bu cür situasiyalarda xərcləri azaltmaq deyil, gəlirləri çoxaltmaq üçün çalışıram".

**Tanınmış köşə yazarı Zamin Hacı da məsələyə öz rəyini bildirib:** "Başqalarından fərqli olaraq heç vaxt daşıya bilməyəcəyim ağırlıqların altına girməmişəm, həmişə çalışmışam gözüm tox olsun. Bu mənada israfçılıq olmadığından qənaət etməyə də heç nə yoxdur. Bilirsiz ki, biz jurnalistlərin vəziyyəti həmişə necə olub. Qənaəti o adam edir ki, onun imkanı var.

Hökumət öz xərclərini azaldır; Ledi Qaqanın konserti, Avrovizion yarışması və digər bu kimi məsələlərə sərf edilən xərcləri. Bəs biz nəyə qənaət edəcəyik, o məlum deyil. Onsuz da bizim qazancımız gündəlik tələbatlarımızı güclə ödəyirdi. Ancaq yeməyimizdən kəsib qənaət edə bilərik, başqa heç bir fikrim yoxdur".

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT

Son səhifə

N 10 (6331) 15 yanvar 2016

# İntihar zarafatı etmək istədi, öldü

Rusiyanın paytaxtı Moskvada intihar zarafatı məqsədi ilə selfi çəkməyə çalışan gənc boğularaq həyatını itirib. Məlumatlara görə, gənc oğlan özünü asırmış kimi şəklini çəkmək istəyib. Lakin həmin anda tarazlığını itirib və yıxılıb. İpdən asılı qalan oğlan boğularaq ölüb. Rus mediasında yayılan xəbərlərə görə, 15 yaşlı gənc oğlan sevgilisi ilə oyun oynamağa bağlayıb. Qız ona qolunu kəsmiş kimi şəklini çəkib göndərib. Bu dəfə də oğlan ona özünün asılmış şəklini göndərmək istəyib. Lakin şəkli çəkdiyi anda stuldan yıxılıb. Boynundan asılı qalan oğlan həyatını itirib. Oğlanın çəkdiyi son şəkil telefonunda qalıb. Gənc oğlanın asılmış halını isə ilk görən kiçik qardaşı olub.





## Kişilərin xəyanət etməsinin səbəbi

**1. Səliqəsizlik.** Elə xanımlar var ki, bütün günü özləri ilə məşğuldurlar. Evləri isə səliqəsizlik, toz içindədir. Heç nə öz yerində deyil. Həyat yoldaşı işdən gəldikdə isə ürəkaçan vəziyyətlə qarşılaşmır və nəticədə kişi evinə gəlmək istəmir, bezir.

**2. Bozbaş iyi.** Yuxarıda yazdığımız birinci səbəbin tam əksi. Evləri səliqəli, təmiz, necə deyərlər, gül-çiçək içindədir. Amma özlərinə fikir vermirlər. Bütün günü mətbəxdə ərinə yemək bişirən xanımdan bozbaş iyi gəlir.

**3. Dır-dır.** Həyatda, cəmiyyətdə elə qadınlar var ki, həmişə nədənsə narazı olurlar. İstədikləri arzuların həyata keçməsinə baxmayaraq, yenə də deyinirlər və nədənsə narazıdırlar. Qadınların sonsuz, fasiləsiz deyinmələri kişiləri bezdirir.

**4. Diqqətsizlik.** Bütün xanımlar diqqəti sevirlər. Və bu zaman unuduruq ki, kişilərin də qadınlarda olduğu kimi, diqqətə ehtiyacı var. Axı onlar da diqqətə layiqdirlər. Qadın həyat yoldaşına onun həyatında necə vacib, dəyərli olduğunu hiss etdirməli, ona diqqət göstərməlidir.

**5. Mənasız həyat.** Bəzən həyat eyni, cansıxıcı və mənasız keçir. Və bu daha çox qadınlara tez təsir etdiyindən, onlar da ərlərinə hiss etdirirlər. Bu halda kişi xanımından bezir, başqaları haqqında düşünür.

**6. İntim həyat.** Bu haqda çox danışmaq istəmirik. Bircə onu deyək ki, qadınlar hər zaman gözəl, təmiz, arzu olunan və kişilərin istədiyi kimi olmalıdır.

# Amerikanın yeni milyarderi

Amerikada həftələrdir davam edən "Pover-ball" adlı lotereya oyununda cek-pot udulub. 1,5 milyard dollara yüksələn rekord məbləğ Los-Ancelesdə satılan bir biletin sahibinə qismət olub. Kaliforniya ştatının lotereya idarəsindən verilən açıqlamaya görə, bilet kasıb qəsəbələrin birində satılıb. Şanslı rəqəmlərin yazıldığı biletin sahibi isə kimliyini açıqlamayıb. Biletin Kaliforniyanın Chino Hill bölgəsindəki bir marketdə satıldığını öyrənən bölgə sakinləri mağazanın ətrafına toplaşıblar. Başqa bir biletin də qazanılmış pula ortaq olub-olmadığı bəlli deyil. Bileti satan satıcıya 1 milyon dollar bonus veriləcəyi açıqlanıb. Pulu qazanan şəxs 1,5 milyard dolları 29 il ərzində illik ödəmələr şəklində alacaq. Əgər illik almaq istəməzsə bir dəfəyə 930 milyon dollar ala bilər. Şanslı şəxs pulunun 40%-ni vergi olaraq verəcək. 1,5 milyard dollar həcmindəki pul Amerika tarixindəki ən böyük uduş kimi tarixə düşüb.







## Cani axtarış üçün polisin yaydığı şəkli bəyənmədi

Amerikada axtarışda olan cinayətkar polisin internet saytında yayımlanan şəklindən xoşu gəlməyib. Donald Chip Pugh çirkin göründüyünü düşündüyü şəklin saytdan çıxarılması üçün polis şöbəsinə yeni bir şəkil göndərib. Şəkli göndərərkən o, "daha yaxşı şəkil göndərəcəyəm, digərləri çox qorxuncdur" deyə yazıb. Polislər isə facebookdan göndərilən mesaja cavab olaraq "bizə kömək etdiyin üçün çox sağ ol. İndi də cinayət işlərin haqqında danışmaq üçün polis şöbəsinə gəl" yazıblar.

45 yaşlı cinayətkarın göndərdiyi şəkil və polis arasında olan yazışma hər kəsin diqqətini cəlb edib. Minlərlə facebook istifadəçisi tərəfindən paylaşılan şəklin köməyi ilə cinayətkar Floridada tapılıb.




**QOÇ** - O qədər də uğurlu gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlər zəminində ehtiyatlı olun. Sizə aidiyyəti olmayan məsələlərə müdaxilə etməyin.

**BUĞA** - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.

**ƏKİZLƏR** - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

**XƏRÇƏNG** - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Pul məsələlərində isə ehtiyatlı olun.

**ŞİR** - Yaxşı olar ki, əsas vaxtınızı fəaliyyət sahəsində xərcləyin. Münasibət qurmaq, hansısa qlobal problemi həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu ərəfə deyil. Yalan vədlər verməyin.

**QIZ** - Göy qübbəsi daha çox şəxsi büdcənizdə artım olacağını vurğulayır. Odur ki, bütün enerjinizi məhz deyilən istiqamətə yönəltməyə çalışın. Axşama yaxın aldanma ehtimalınız da var. Tədbirli olun.

**TƏRƏZİ** - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şans qazanacaqsınız.

**ƏQRƏB** - Ulduzların düzümü riskdən uzaq olmağı tövsiyə edir. Əks təqdirdə, cəhdləriniz boşa çıxacaq. Nahar ərəfəsində isə perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə qənaətcil olun.

**OXATAN** - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün ziyarətə getmək, dua oxumaq sizə rahatlıq gətirəcək.

**OĞLAQ** - Bu təqvimin dini-mistik mahiyyətini anlamağa çalışın. Tanrıya zidd olan addımlardan yayının, müqəddəs ocaqlara gedin. Çalışın ki, dilinizdən yalnız xoş sözlər, dualar çıxsın.

**SUTÖKƏN** - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.

**BALIQLAR** - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Müştərək fəaliyyətdən uzaq olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 100 yaşlı mafiya başçısı



İtaliyada 1980-90-cı illərdə polislə atışmalar və axtarışlar zamanı bir dəfə belə olsun ələ keçməyən, həbsə girmədən xilas olmağı bacaran mafiya başçısı Procopio di Maggio Siciliyadakı Cinisi qəsəbəsində 100 yaşını qeyd edib. Atəşfəşanlıqla qeyd edilən ad gününü yaxınları və digər mafiya qruplarının başçıları ilə keçirən Maggionun şənliyi yerli əhalini çox əsəbiləşdirib. Göy üzündə mafiya başçısının yeni yaşının - 100 rəqəminin yazılması üçün 6 dəqiqə atəşfəşanlıq edilib. Bölgədə yaşayan əhali isə atəşfəşanlığın qanunlara uyğun olmadığını deyərək polisə şikayət edib.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300